بسم الله الرحمن الرحيم

# SUAL VƏ CAVAB

Bakı-2009

Azərbaycan Respublİkasinin Dini Qurumlarla İş üzrə dövlət komitəsinin 29 iyul 2009-ci il Dk-215/Q saylı məktubu əsasında «Zərdabi LTD» MMC-nin mətbəəsində çap olunmuşdur.

Kitabın adı:.......................Sual və cavab
Müəllif :.. Ustad Ayətullah Əllamə Təbatəbai
Tərcümə edənlər: Nağı Ağayev və Leyla Əsgərova
Çap növbəsi.............Birinci, 2009

# ÖN SÖZ

Əziz oxucular! Hal-hazırda oxucusu oldugunuz bu kitab əsrimizin dahi alimi filosof Əllamə Seyid Məhəmməd Hüseyn Təbatəbai ilə alimlərdən birinin müxtəlif mövzularda sorğu-sualı və bəyan etdiyi bəzi mövzular əsasında tərtib edilmişdir.

İslam dünyasının fəxri Əllamə Təbatəbai 1902-ci ildə Təbrizdə anadan olmuşdur. İlk təhsilini doğma şəhəri Təbrizdə almış, daha sonra İslami elmlər mərkəzi olan Nəcəfi-əşrəfə gedərək, orada fiqh və üsuli-fiqh, sərf, nəhv, ərəb ədəbiyyatı, riyaziyyat, fəlsəfə, kəlam, irfan və təfsir sahələrində 10 il təhsil almışdır.

O, 15 noyabr 1981-ci ildə vəfat etmişdir. Allah onu öz vəliləriylə həşr etsin, ona rizvanında yer versin!

# KİŞİ VƏ QADININ HÜQUQLARI

**Sual 1**. İslamda kişi ilə qadın eyni hüquqa malikdirlərmi?

**Sual 2.** Qadın da kişi ilə bərabər siyasət və dövlət işlərində vəzifə tuta bilərmi?

**Cavab:** İslamın yeni zühur etdiyi dövrdə dünya ictimaiyyətinin nəzərində qadına qarşı iki fikir mövcud idi:

1. Bəziləri qadını heyvanla bir sanır və onlara görə qadın cəmiyyətin üzvü hesab olunmurdu. Lakin müxtəlif işlərlə əlaqədar olaraq kölə kimi saxlanılır, istismar olunurdu. Misal üçün, nəslin artımında və sair işlərdə onlara ehtiyac duyulurdu.

2. Birinci qrupa nisbətən mədəni sayılan başqa qrupun bir fikrincə isə, qadın cəmiyyətin natamam üzvü hesab edilirdi. Qadına hətta şüursuz uşaq, yaxud bir əsir kimi baxılırdı və onun hüquqları kişilərin ixtiyarında idi.

Qadını ilk dəfə dünyada cəmiyyətin kamil üzvü sayan və onu həqiqi mənada qiymətləndirən Islam dini olmuşdur: **"İstər kişi, istərsə də qadın olsun, Mən heç birinizin əməllərini puça çıxarmaram. Sizin hamınızın xilqəti birdir."**[1]

İslam ictimai məsələlərdə qadına yalnız üç yerdə müdaxiləyə icazə verməyibdir:

---

[1] "Ali-İmran" surəsi, ayə: 195.

1) rəhbərlik; 2) məhkəmə hakimi vəzifəsində çalışmaq; 3) müharibədə ön cəbhədə vuruşmaq. Dini mənbələrdə qeyd olunduğu bunun səbəbi qadınların emosiyonal, kişilərin isə rasional xarakterli olmasıdır.

Bu üç vəzifə isə sırf qəti qərar və diqqətə əsaslanmalı, qəlbi hisslərdən və duyğulardan uzaq olmalıdır. Belə isə onların qadın kimi zərif mövcuda tapşırılması düzgün deyildir və hətta təcrübə də onların inkişafa səbəb olmayacaqdır.

Qərb aləminin kişi və qadın üçün müştərək təlim və tərbiyə proqramları nəzərdə tutmasına baxmayaraq indiyə kimi ictimaiyyətin bu üç sahəsində qadınların tutarlı bir bal toplaya bilməmələri buna ən gözəl dəlildir. Güclü siyasətçilər, hakimlər və sərkərdələrin sırasında qadınların sayı kişilərə nisbətdə çox cüzidir. Halbuki bunun əksi tamamilə üstünlük təşkil edir (buna misal olaraq tibb bacısı, rəqqasə, rəssam, bəstəkar və kino aktrisalarını göstərmək olar).

**Sual 3.** Nə üçün qadına düşən irs kişidən azdır?

**Cavab:** İslamda irsin bölümünə əsasən, qadına bir pay, kişiyə isə iki pay çatır. Bunun səbəbi qadının güzaran və xərcinin kişinin öhdəsinə düşməsilə əlaqədardır. Burada yenə də qadınların emosiyonal, kişilərin isə rasional olması nəzərə alınmışdır.

**İzah:** Hər əsrdə yer üzünün sərvəti o əsrdə yaşayanlarındır və sonra gələn nəsillər isə onların varisi olur. Qadınla kişinin sayı həmişə fərqli olduğu

üçün İslamda irsin üçdə ikisi kişiyə və üçdə biri isə qadına çatır. Bununla belə, qadının xərci kişinin öhdəsinə düşdüyü üçün o, ərinin payının yarısına şərik olur.

Deməli, qadın irsin üçdə birinə malik olsa da, onun istifadəsi zamanı yenə ona üçdə ikisi qismət olur, kişiyə isə üçdə biri çatır. Beləliklə, yalnız mülkiyyət baxımından irsin üçdə ikisi təfəkkür sahibinin, üçdə biri atifə sahibinindir, istifadəsinə gəldikdə isə, əksinə üçdə ikisi qadının, üçdə biri isə kişinindir. Bu isə ən gözəl bölgüdür.

Bundan əlavə, belə bölgünün ailənin təşkilinə mühüm faydaları vardır.

**Sual 4.** Nə üçün talaq kişinin ixtiyarındadır?

**Cavab:** Dinin psixoloji proqramlarına əsasən, bu məsələ yenə də kişilərdə təfəkkür qüvvəsinin üstünlük təşkil etməsilə əlaqədardır (bu o deməkdir ki, qərarlarında tez hisslərə qapılmırlar). Lakin bununla belə, İslam dini qadınlara da müəyyən imtiyazlar vermişdir, məsələn, həyat qurarkən nikah zamanı bir sıra şərtlərlə kişinin ixtiyarını azalda bilər, yaxud qoyulan şərtlərin pozulması ilə boşanmaq üçün imkan qazana bilərlər.

**Sual 5**. Qadının iqtisadi işlərdə müstəqilliyi varmı?

**Cavab:** İslamda qadının özünə aid olan mal və ticarət işlərində tam azadlığı vardır.

**Sual 6.** Nə üçün kişi bir neçə arvad ala bilər?

**Cavab:** Məlum olduğu kimi İslam neçə dəfə evlənməyi vacib etməyib və kişinin də yalnız dörd qadın almağa hüququ çatır. Bu da o vaxt mümkündür ki, onlarla ədalətlə rəftar edə bilsin. Belə bir hökmün icra olmasının şərti budur ki, bu hökm cəmiyyəti qadın azlığı və kişi çoxluğu problemi ilə üzləşdirərək hərc-mərcliyə səbəb olmasın.

Kişilərə gəldikdə isə məsələ aydındır ki, onların hamısı bu işə qadir deyillər. Çünki yaşayış üçün ailəni evlə təmin etmək, qazanc və arvad-uşaqların xərci kişinin öhdəsinədir. Bundan əlavə ədalət də bir şərt kimi nəzərə alınmışdır. Belə isə az adam üçün bu şərait yarana bilər. Bir də ki, həmişə təbiət və xarici aləmin qanunlarına əsasən, qadınların evlənmə həddinə çatması tez baş verir və bu da onların sayının çoxluğuna daha çox imkan yaradır.

Əgər müəyyən bir ili başlanğıc təyin edib anadan olan oğlan və qız uşaqlarının sayını qeydə alsaq, 16 ildən sonra fizioloji baxımdan ailə qurmağa hazırlığı olan qızların sayı oğlanlardan yeddi dəfə, 20 ildən sonra 11/5 (2,2) dəfə, iyrimi beş ildən sonra isə (adətən evlənmək üçün normal yaş vaxtı) 16/10 (1,6) dəfə çox olacaq. Belə olduqda, əgər çoxarvadlı kişiləri sayını beşdə bir fərz etsək, 8% kişilər bir arvadlı və 20% isə dörd arvadlı olacaq və otuzuncu ildə isə kişilərin 20%-i üç arvadlı olacaqdır.

Bundan əlavə, qadınların ömrü kişilərdən çox və həmişə cəmiyyətdə dul qadınların sayı dul kişilərdən

artıq olur. Eləcə də kişilərin tələfatı qadınlardan çoxdur, xüsusilə dünya müharibələrini buna misal göstərmək olar.

Son vaxtlar qəzet və jurnallarda verilən məqalələrdən biri də bu idi ki, "Almaniya Qadınlar Cəmiyyəti" dövlətdən İslamda olan çoxarvadlılıq qanununun Almaniyada da icra olunmasını istəmişlər. Çünki, bu vasitə ilə dul qadınların da cinsi ehtiyacları təmin olunacaqdı. Amma dövlət isə kilsənin müxalifəti ilə bu təklifi qəbul etməmişdir.

Başqa bir tərəfdən isə qadınların çoxarvadlılıqla müxalifəti hansısa bir instinktiv hissdən qaynaqlanmır. Çünki kişilər ikinci, üçüncü və dördüncü arvadı zorla almırlar. İkinci, üçüncü və dördüncü arvad olanlar da göydən düşməyiblər və onlar da adi qadınlardır. Bu adət min illərdir ki, bir çox millətlər arasında olub və bu yolla nə pozğunluq əmələ gəlib və nə də qadın azlığı yaranmışdır.

**Sual 7.** Nə üçün pozğun işlərdə kişi və qadın bərabər səviyyədə şərik olduqları halda qadın daha çox məzəmmət olunur?

**Sual 8.** Qəbul edirsiniz ki, kişi üstün və güclü varlıqdır. Bu halda gərək o, öz əməllərinə nəzarət etməyə (o cümlədən zina məsələsində öz nəfsani istəklərini cilovlamağa) daha qadir olmalıdır və əgər bunu etməsə daha çox məzəmmət olunmalıdır?

**Cavab: (7-8).** İslamda belə göstərişdən xəbər yoxdur.

# AİLƏ QURMAQ

**Sual 9.** İslamın evlənmək və ailə qurmaq haqda nəzəri nədir?

**Cavab:** Evlənmək və ailə qurmaq haqqında İslamın nəzərini və onun başlıca qanunlarını dəlilləri ilə geniş izah etmək bu məqalənin öhdəsindən xaricdir. Amma qısa şəkildə demək olar ki, İslam evlənməyi və ailə qurmağı cəmiyyətin yaranmasına və davam tapmasına əsas səbəb bilir. Bu mənada ki, xilqət insanlar arasında ictimaiyyət yaratmaqdan ötrü insanları kişi və qadın cinsi üzvləri ilə yaraqlandırıb onlar arasında instinktiv əlaqə yaratdı. Bu instinktiv istək nəticəsində onlar bir-biri ilə yaxınlaşıb uşaq dünyaya gətirirlər ki, bunda hər ikisinin rolu var. Ana uşağa hamilə olduqdan sonra onu dünyaya gətirir və öz körpəsinə olan məhəbbət hissi ilə böyüdüb boya-başa çatdırır. Bu işdə çətinliklə yanaşı olan ləzzət hissi onların məhəbbətini artırır və nəticədə tərbiyəetmə prosesi ikiqat artır. Körpəni boya-başa çatdırırlar və valideynin bu məhəbbəti müqabilində uşaq da onlara məhəbbət göstərir. Beləliklə, ailə quruluşu, sonra qohumluq əlaqəsi, şəhər və ölkə ictimaiyyəti yaranır.

Aydındır ki, bu halda, cəmiyyətin aradan getməsinin qarşısını almaqdan ötrü ehtirasların məhdudlaşdırılması və kişini öz rəsmi arvadından, qadının isə öz rəsmi ərindən kənara çıxmaması lazımdır. Eləcə də uşağın atası məlum olmalıdır. Əks

təqdirdə, cavanlar öz ehtiraslarını başqa yolla təmin edib, ailə qurmağın çətinliyinə razı olmazlar. Belə olduqda ata ilə övlad öz aralarında genetik bağlılıq olmasına əmin olmayacaq[2], nəticə etibarı ilə ailə məhəbbəti zəifləyəcək. Beləliklə zinanın yayılması əxlaq pozğunluğu, tibbi və ictimai ziyanlar, nəslin kəsilməsi və saysız-hesabsız xəyanətlərlə nəticələnməklə yanışı ailə məhəbbətinin tamamilə aradan getməsinə də səbəb olacaqdır.

Müşahidə etdiyimiz kimi, cinsi əlaqələrin azad olduğu ölkələrdə ailə məhəbbəti gündən-günə aradan gedir və belə vəziyyətlə bəşəriyyətin gələcəyi təhlükə ilə üzləşir.

Neçə il bundan əvvəl qəzet və jurnalda oxudum ki, Amerikada hər ildə 300 min atası məlum olmayan uşaq dünyaya gəlir. Bu gedişlə bəşəriyyətin taleyi 100 ildən sonra aydındır. Məhz bu baxımdan İslam qadın ilə kişinin evlənmədən cinsi əlaqəsini tamamilə qadağan edir və uşağın xərcini atanın üzərinə qoyaraq, atanı övladın həyatının məsulu kimi tanıyır.

İslamda qohumluq əlaqəsi olub təbii rəftar edilən şəxslər ilə evlənmək olmaz: ana, bibi, xala, bacı, bacı qızı və qardaş qızı kişiyə haramdır. Eləcə də gəlin, qaynana, arvadın başqa kişidən olan qızı, baldız (nə

---

[2] Yəni ata, övladı sayılan şəxsin doğrudan da onun uşağı olmasına, həmçinin övlad da ata hesab etdiyi şəxsin onun həqiqi atası olmasına şübhə ilə yanaşacaq.

qədər ki, bacısı onun nikahındadır), ərli qadınlar və süd qohumları ilə evlənmək olmaz. Qadınlar üçün də kişilər bu nisbətlə haramdır. Bu mətləblərin dəlilləri Qurani-kərimin «Nisa» surəsinin ayələrindən, eləcə də Peyğəmbər (s) və imamlardan nəql olunan və hədis kitablarında yazılan rəvayətlərdən götürülmüşdür.

**Sual 10.** İnsanlığın ən uca zirvəsi, bəşəriyyət aləminin tərbiyəsində dahi bir müəllim və öz əməli ilə digər insanlara ülgü olan həzrət Məhəmməd (s) nə üçün qoca yaşında 9 yaşlı qız ilə evləndi?

**Cavab:** Cavan qızın qoca kişi ilə evlənməsinin eybi yalnız bu ola bilər ki, qoca ər ilə yaxınlıq cavan qadın üçün ləzzətli olmur, yaxud aralarında yaş fərqi olduğuna görə çox vaxt kişi qadın qocalmamışdan öncə dünyasını dəyişir və qadın cavan yaşında ərsiz qalır. Amma aydındır ki, evlənmə təkcə bu iki məqsədə görə deyil və buna görə bu işin qadağan olmasına heç bir dəlil yoxdur. Ola bilsin, bu saydıqlarımızdan başqa daha əhəmiyyətli hədəflər olmuşdur ki, belə bir evlənmənin yol tapmasına səbəb olub.

Bir neçə il bundan əvvəl qəzetdə oxudum ki, Mister Eyzenhauer  Amerikanın prezidenti olan zaman Amerikada rəy sorğusu aparıblar və bu sorğuda ölkənin subay qızlarından soruşublar: "Kiminlə evlənmək istəyirsiniz?" Qızların əksəriyyəti

Eyzenhauer ilə evlənmək istədiklərini bildiriblər. Halbuki, Mister Eyzenhauer nə cavan idi, nə də gözəl.

Peyğəmbəri-Əkrəmin evlənməsinə gəldikdə isə, O Həzrətin həyatından az-çox məlumatı olan hər kəs bilir ki, həzrət həvəsbaz və əhlikef olmayıb və onun işləri hissiyyata yox, ağıla əsaslanıb. O həzrətin belə bir işi görməsi həqiqətdə, buna icazə verməsi idi və o həzrətin dəvətinin irəliləyişində böyük təsiri oldu

**Sual 11.** Müvəqqəti evlənmək (siğə) ilə sünnülər müxalifdirlər, bu haqda sizin nəzəriniz nədir və bu əməldə məqsəd nədən ibarətdir?

**Sual 12.** Fikirləşmirsinizmi ki, bu iş insani qanunların ziddinədir və qadını (əgər bir insan kimi qəbul edirsinizsə) kişinin rahatlığını artıran əşya formasına gətirir?

**Cavab: (11-12).** Müvəqqəti evlənməyin dini və şəri olmasını Qurani-kərim «Nisa» surəsinin 24-cü ayəsində təsbit edibdir. Bu işdə şiələr sünnilərin müxalifətinə fikir vermirlər, çünki, bu iş Quranda təsbit olunub. Peyğəmbərin (s) və birinci xəlifənin zamanında, eləcə də ikinci xəlifənin xilafətinin bir hissəsində bu qanun qüvvədə idi və ona əməl olunurdu, sonradan ikinci xəlifə onu qadağan etdi. Aydındır ki, Quranın hökmünü təkcə Quran "nəsx" edə bilər (dəyişə bilər) və İslam hökumətinin şəriət hökmləri barəsində nəzər söyləməyə haqqı yoxdur.

Siğədən məqsəd müvəqqəti evlənməkdir və onun İslam nəzərində şəri (dini) olması yuxarıda deyildiyi

kimi şübhəsizdir. "Hökmlərin fəlsəfəsi" nöqteyi-nəzərindən talaqın məşruiyyəti (şəxslərin boşanma hüququna malik olması) göstərir ki, evlənmək müvəqqəti də ola bilər. Müvəqqəti evlənmə dəqiq tənzim olmalıdır ki, neqativ halların yaranmasına gətirib çıxarmasın, belə olduqda onu qadağan etməyə heç bir əsas yoxdur.

"Qadının bu işi onu əşya kimi çox rahatlıqla kişinin ixtiyarına verir"— sözü isə əsassız bir iddiadır, çünki qadın məcburiyyət qarşısında yox, öz ixtiyarı ilə bu işi qəbul edir. Bu işdə kişi üçün təsəvvür olan işləri qadın üçün də təsəvvür etmək olar: birlik, ləzzət, uşaq dünyaya gətirmək, ya həyatda olan digər bəhrələr hər iki tərəfdə mövcuddur, deməli iki tərəfdən birinin oyuncaq olmasına sübüt yoxdur.

Bundan əlavə, əgər insan dünyasına geniş və ümumi nəzərlə diqqət etsək, əyani surətdə görərik ki, bəşər aləminin cinsi əlaqəsini daimi nikah ilə məhdud edərək digər yaxınlıqları qeyri-şəri saymaq mümkün deyildir və təkcə daimi nikaha icazə verməklə cinsi istəklərin tam şəkildə təmin olunacağına heç vaxt zəmanət vermək olmaz.

İnkişaf etmiş və inkişafda olan ölkələrin rəsmi dövlətləri heç biri müvəqqəti yaxınlığın və onun genişlənməsinin qarşısını ala bilməyiblər. Böyük şəhərlərin hamısında bu iş üçün aşkar, ya gizli mərkəzlər təşkil olunub. Hər hansı bir məzhəb cinsi əlaqəni evlənmək ilə məhdud edib zinanın qarşısını

tamamilə almaq istəyirsə, bu ümumi tələbata qənaətbəxş cavab vermək üçün zinada olan fəsadı aradan qaldıra bilən xüsusi şərtlər çərçivəsində müvəqqəti evlənməni öz qanununda yerləşdirməlidir.

Həzrət Əmirəl-möminin Əli (ə) buyurmuşdur: "Əgər ikinci xəlifə müvəqqəti evlənməni (mütəni) qadağan etməsəydi, təkcə yollarını azıb həlakətə doğru gedənlər zina edərdi." Buradan aydın olur ki, bu işi insani qanunlardan kənar saymaq nə qədər həqiqətdən uzaqdır.

Şübhəsiz ki, insani qanunlar dedikdə İslamdan qabaq olan qədim Roma qanunları və Hammurabi qanunu kimi qədim qanunlar nəzərdə tutulmur, çünki bu qanunlarda qadın ilə heyvan yaxud əsir kimi davranırdılar. Burada insani qanunlardan məqsəd qərb qanunlardır.

Bu gün insan dünyası dedikdə qərb dünyası, bəşəriyyət aləmi dedikdə qərb aləmi və insan dedikdə qərb insanları başa düşülür. Biz burada bu fikrin nə dərəcədə obyektiv olması yaxud təlqin, təqlid və təbliğat nəticəsində formalaşan səhv bir fikir olması barəsində bəhs etmək qəsdində deyilik. Hər halda hazırda bu fikir bütün zehnlərə hakim kəsilib. Amma nəzər salmaq lazımdır ki, özləri ilə fəxr edən bu insanlar evlilik şəraitindən kənarda, naməhrəm kişilərlə qadınların bir-birinə qarışdığı yerlərdə "insani qanununların ziddinə olan" müvəqqəti nikahın yerinə nəyi qərar veriblər? İnkişaf etmiş

ölkələrdə, xüsusilə başqalarından daha sivilizasiyalı sayılan ölkələrdə, qadınlar ilə kişilər, oğlanlar ilə qızlar, kişilər və cavanlar bir-biri ilə nə oyunlardan çıxırlar? Daimi nikahın vasitəsi ilə yaranan çatışmazlığı hansı yolla təmin edirlər? Bu haqda çap olunan sarsıdıcı statistik göstəricilər nəyi çatdırır?

**Sual 15.** Deyirlər, həzrət Məhəmməd (s) sifariş edibdir ki, əgər bir şəxsi övladlığa qəbul etsəniz, onunla həqiqi övlad kimi rəftar edin. Bu düzdür, ya yox?

**Sual 16.** Əgər belədirsə, nə üçün o, oğulluğa qəbul etdiyi şəxsin boşanmış arvadı ilə evlənməsinə razı oldu?

**Cavab: (15-16).** Heç vaxt o Həzrət belə bir söz deməmişdir. Bütün bunlar İslamın müxaliflərinin, xüsusən də qərb məsihilərinin uydurduqları iftiradır. O Həzrətin, öz oğulluğunun keçmiş arvadı ilə evlənməsi bu yanlış adətin səhv olmasını və onun batilliyini elan etməyə görə idi. O zaman əksər ölkələrdə övladlığa qəbul etmək və övlad ilə həqiqi qohumluq əlaqəsini icra etmək adət şəklini almışdı. Qurani-kərimin «Əhzab» surəsinin bir neçə ayəsi bu haqdadır.

**Sual 17**. Kişi və qadın arasında olan sevgi və intim-cinsi rabitə haqda İslamın nəzəri nədir?

**Cavab:** Öncə qeyd olunduğu kimi, ümumiyyətlə nikahdan kənar olan hər növ intim-cinsi əlaqə İslamda qadağan və haramdır. Bilmək lazımdır ki,

nikahda olmayan qadınla kişinin intim-cinsi əlaqəsinin İslamda haram olması buna görə deyildir ki, bu cür hallar baş verərkən kiminsə rahatlığı pozulur, azadlığı əlindən alınır yaxud hüquqlarını tapdanır. Çünki əgər belə olsaydı, qadınla kişinin hər ikisinin razı olduğu və heç birinin hüquqlarını tapdanmadığı surətdə artıq bu iş haram olmamalı idi. İslamda bu hökmün fəlsəfəsi cəmiyyətin düzgün formalaşması, valideynin tanınması və irsin bərpası kimi məsələlərin müəyyənləşdirilməsindən ibarətdir. Bura zina və onun müxtəlif halları da daxil olmaqla hamısı qadağandır və "livat" da zina kimidir.

## BOŞANMAQ

**Sual 18.** İslamın nəzərində talaq necədir?

**Cavab:** Talaq, İslam qanunvericiliyinin fəxrlərindəndir. Çünki, kişi ilə qadın arasında anlaşma olmadıqda meydana gələn əbədi bədbəxtçiliyə son qoyur. Hətta qeyri-islami dövlətlərin belə bir-birinin ardınca tədricən onu qəbul etmələri onun düzgün və tutarlı bir qanun olmasına əyani dəlildir. Dördüncü sualın cavabında qısa da olsa bu suala cavab verildi.

Talaq, İslamın zəruriyyətlərindən sayılır. Onun mənbəyini söyləməyə ehtiyac yoxdur. Talaqın hökmlərinin geniş izahı və mənbələrinin söylənməsi bu məqalənin öhdəsindən xaricdir.

**Sual 19.** İslamda qadının kişi kimi həyat yoldaşı seçməyə haqqı varmı, ya yox?

**Cavab:** İslamda qadın həyat yoldaşını seçməkdə azaddır.

**Sual 20.** Ata və ana boşanarkən uşaq kimə verilir?

**Cavab:** Boşanmış qadının yeddi yaşına kimi uşağı saxlamağa haqqı var və bu müddətdə uşağın xərci atanın öhdəsindədir. Hökmün sənədi üçün İslam fiqhinə müraciət edə bilərsiniz.

## İSLAM DİNİNİN ZAMANLA UYĞUNLAŞMASI VƏ ŞƏRİƏT HÖKMLƏRİ

**Sual 21.** Qəbul edirsinizmi ki, İslam dini zamanın dəyişməsini dərk edə bilməyib, zaman və məkan ilə uyğunlaşa bilmir?

**Cavab:** «İslam zamanın dəyişməsini dərk edə bilməyib, zaman və məkan ilə ayaqlaşa bilmir»— anlayışı fəlsəfi düşüncədən daha çox fərdi düşüncəyə bənzəyir. Zaman və məkan dəyişmədiyi üçün ictimai qanunlarının da dəyişməsindən söhbət açmaq yersizdir. Gecə-gündüz, yer, hava və başqaları min il bundan əvvəl də bu şəkildə idi.

Həyatda dəyişilən şey yalnız insanın öz gündəlik irəliləyişi sayəsində baş verən və gündən-günə onun istəklərini artıran yaxud əvəz edən yaşayış tərzidir. İnsanın fəal qüvvəsi güclü inkişaf sayəsində özünə cürət verir ki, bu günkü dilənçi keçmiş padşahların

ağlına gəlməyən növbənöv firavanlıqlara və xoşgüzəranlıqlara çatmaq fikrinə düşsün.

Cəmiyyətin fikir dəyişikliyi adi bir insanın həyatındakı müxtəlif vəziyyətlər və situasiyalar vasitəsi ilə yaranan düşüncə dəyişikliyi kimidir. Kasıb və əliboş insan hər şeyi unudub təkcə qarnının qayğısına qalır. O, gündəlik çörəyi təmin olan kimi geyiminin fikrinə düşür. Onu da təmin edəndən sonra mənzil, ailə qurmaq fikrində olur. Sonra övlad, yaşayışın yaxşılaşması, var-dövlət yığmaq, şan-şöhrət qazanmaq, təmtəraq, müxtəlif xoş güzəran və beləliklə bu şəkildə davam edir.

Bu günkü ictimai qanunlarda, hətta cəmiyyətin həqiqi məsləhəti ilə uyğun olmasa belə əksəriyyətin istəyi əsas götürülür, azlıq təşkil edən insanların istəyinə isə hətta bu istək cəmiyyətin xeyirinə olsa belə etinasız yanaşılır. Amma İslam təfəkkür tərzi belə deyildir.

İslam öz qanununda təbii insanı (Qurani-kərimin bəyanında insanın fitrətini) dayaq qərar verir, yəni insanın quruluşunu onun bütün xüsusiyyətləri ilə birlikdə nəzərə alır və bu quruluşun ehtiyacları ilə uyğun olan müəyyən qanunlar qərar verir.

Nəticə etibarilə İslam öz təyin etdiyi qanunlarda əksəriyyətin istəyi ilə uyğun gəlib gəlməməsindən asılı olmayaraq cəmiyyətin həqiqi məsləhətini təmin etmək istəmişdir, bu o qanundur ki, Islam onu şəriət adlandırıb onları dəyişməyə icazə vermir. Çünki,

onun dayağı insanın təbii yaranışıdır, onu dəyişmək isə mümkün deyil. Nə qədər ki, insan insandır, onun təbii ehtiyacları sabitdir.

İslamın şəriət adlanan sabit qanunlarından əlavə həyatın, inkişaf və mədəniyyət sayəsində baş verən dəyişikliyinə aid olub əvəz olunan qanunları da vardır. Bu əvəz olunan qanunlarla şəriət qanunları arasında olan əlaqə milli məclisin əvəz olunan qanunları ilə dəyişməyən konstitusiya arasında olan əlaqəyə bənzəyir.

İslam dini hökumət başçısına ixtiyar verir ki, şəriət qanunu əsasında lazımı yerlərdə məsləhətə uyğun olaraq şuranın nəzərdə tutduğu qanunları icra etsin. Bu qanun məsləhət tələb edənə qədər etibarlı sayılır məsləhət aradan gedən kimi ləğv olur. Şəriət qanunları əksinə olaraq, ləğv olmur.

Beləliklə, İslamın iki növ qayda-qanunu var: 1. Sabit qanunlar. Bu qanunun dayağı insanın sabit təbiətidir və o, şəriət adlanır; 2. Dəyişməyə imkanı olan qanunlar. Bu qanunların dayağı isə zamanın məsləhətidir ki, məsləhətin dəyişməsi ilə dəyişə bilir.

Misal üçün, insan təbii olaraq həmişə bir yerdən başqa yerə səfər edir. Keçmişdə səfərə çıxmaq və uzaq məsafəni qət etmək piyada, at və başqa minik vasitəsi ilə həyata keçirdi, belə halda çox qanun yazmağa ehtiyac duyulmurdu. Amma hal-hazırda nəqliyyatın genişləndiyi və səhra, dəniz və hava nəqliyyat

vasitələrinin ortaya çıxdığına görə çox dəqiq qanunlar təyin edilməlidir.

Buradan məlum olur ki, "İslam zamanın əvəz olmasını dərk etməyib" fikrini demək çox əsassızdır.

Etiraz edən şəxslər "İslam zamanın dəyişməsini dərk etməyib" deməkdənsə konkret olaraq İslamın hansı hökmlərinin əsrimizin həqiqi məsləhəti ilə uyğun gəlmədiyini göstərib sübut etməli, yaxud hansısa hökmün məsləhətindən sual etməlidirlər. Bu mövzunun çox müfəssəl bir bəhs olduğunu nəzərə alaraq burada dediklərimizə kifayətlənir və bundan artıq ona toxunmuruq. Eyni halda əgər qaranlıq qalsa, ya şübhə olsa, xatırladın, bəhsi davam edək.

**Sual 22.** Sizə elə gəlmirmi ki, İslam qanunlarının əksəriyyəti 1400 il bundan qabaqkı zamanın və məkanın tələbatı ilə uyğun idi və artıq dəyişilməlidir?

**Cavab:** Bu sualın cavabı ötən sualın cavabında aydın oldu. İslamın "şəriət" qanunlarının əsası və dayağı əksəriyyətin istəyi deyil, fitrət və insanın məxsus yaranışıdır.

Allah-taala buyurur: «**Düzgün olan din İslamda möhkəm ol, o din ki, yaradılış ilə uyğundur və Allah-taala insanları onun əsasında xəlq edibdir. Allahın yaratdığı əvəz olunmaz və dəyişməzdir**».[3]

**Sual 23.** Elə fikirləşmirsinizmi ki, ziyalı müsəlman alimlərinin dindən üz döndərmələri dinin geridə

---

[3] "Rum" surəsi, ayə: 30

qalmış qanunlarının elm və texnologiya ilə ayaqlaşa bilməməyi ucbatındandır?

**Cavab:** Yaxşı olar ki, bəhsmizin dəlil üzərində irəliləməsi üçün bu boş iddianın yerinə İslamın geridə qalmış qanunlarından bir neçəsini sadalayasınız. İslamın geridə qalan qanunu yoxdur, amma qanunlardan geridə qalmış müsəlman isə çoxdur. Səmavi dinlər, xüsusi ilə İslam dini insanın əbədi həyatından və insan dünyasının metafiziki aləmlə olan əlaqəsindən bəhs edir və bu növ bəhsin bu günkü elm və texnologiya ilə nə əlaqəsi var? Bu gün təcrübi elmlərin tədqiqat obyekti və eləcə də bu günkü texnologiyanın fəaliyyət sahəsi maddə və onun xassələridir. Bu cəhətdən, metafiziki məsələlər barəsində onun nəzər söyləməyə və ya nəyisə rədd etməyə haqqı yoxdur.

Bizim ziyalı müsəlman cavanlarının dindən üz döndərmələrinin günahı dinin qanunlarında deyildir. İnsanların təkcə dini deyil, hətta müşahidə edildiyi kimi vicdani qanunları, insanlığı ayaq altda qoyması buna əyani dəlildir. Yalan, xəyanət, yaltaqlıq, abırsızlıq, avaraçılıq bizim təhsil almış cavanlarımızın arasında mövcuddur. Bu özü şahiddir ki, onlar yalnız dinlə deyil, əsasən düzlük və paklıqla düşməndirlər.

Başqa tərəfdən isə çoxlu ziyalı cavanlarımız (baxmayaraq ki, başqalarına nisbətən azdırlar) vardır ki, gözəl əxlaqa malik olub, dini maarif ilə tanışdırlar və o «geridə qalmış qanunlara» əməl edirlər. Heç vaxt

İslam onların elm və sənəti ilə müxalif olmayıbdır və bu cəhətdən İslam qanunları onları həyatda heç bir çətinlik, narahatlıqla üzləşdirmir. Həqiqətdə, bizim təhsil almış müsəlman cavanlarımızın dindən üz döndərmələrinin günahı məsuliyyətsiz və diqqətsiz müəllimlərin, təlim və tərbiyə üslubundakı mədəniyyətin öhdəsinə düşür. Bu nə dini qanunların, nə də insani fəzilətlərin və əxlaq qanunlarının öhdəsindədir.

**Sual 24.** Qərblilərin fikrincə İslam dini təkcə sadə insanlar, əkinçilər, tərəkəmələr və texnologiya ilə əlaqədə olmayanlar üçündür. Gödüyümüz kimi heç bir müsəlman ölkəsi inkişaf etmiş ölkələrdən deyildir. Texnikası inkişaf etmiş ölkələrdə isə İslam dini əsla irəliləyişdə olmayıb, bunun səbəbi nədir? Sizcə İslam qanunlarını elə dəyişdirmək olarmı ki, təhsil almış şəxslər tərəfindən qəbul olunsun və elm ilə uyğunlaşa bilsin?

**Cavab:** İslam ölkələrinin inkişaf etmiş ölkələrdən sayılmamasında şübhə yoxdur, amma görək, adı İslam ölkəsi olan ölkələrin hansında İslam qanunları icra olunur?

Adları İslami olan ölkələr İslamdan hansı bəhrəni götürürlər? Bu ölkələrdə bir sıra insanların namaz, oruc, Həcc və bu kimi dini ibadətləri formal şəkildə və qədim adət-ənənə kimi icra etmlərəlindən başqa İslamın fərdi, ictimai və hüquqi qanunlarının hansı birinə əməl edirlər? Belə olduğu halda görəsən, İslam

ölkələrinin süqutunu İslamın öhdəsinə qoymaq gülünc deyilmi?

Bəlkə də deyə bilərsiniz ki, əgər İslam mütərəqqi din və onun qanunlarının ölkəni idarə etməkdə ləyaqəti olsaydı, onda cəmiyyət arasında özünə yer edib tərk olunmazdı!

Amma yeni bir sual qarşıya çıxır: əgər cəmiyyətdə irəliləyişin olmaması İslam qanunlarının süqutuna dəlildirsə, görəsən, nə üçün yarım əsrdən bəri İslam ölkələrində qəbul olunan qərbin mütərəqqi demokratik üslubu özünə yer aça bilməyərək zahiri dəyişiklikdən başqa onların inkişafında ən az təsirə belə malik olmayıbdır?

Nə üçün şərq aləmi qərblilər kimi bu inkişaf etmiş üslubdan istifadə edə bilmirlər?

Nə üçün  bu insani quruluş (demokratiya) uzun illər insanlıq mərkəzində (qərbdə) özünə yer açaraq cəmiyyətin damarlarında qan yerinə hərəkətdə olduğu halda kommunistlərin hərəkatını söndürə bilmədi? İş o yerə gəlib çıxdı ki, yarım əsrdən az bir müddətdə kommunistlər yer kürəsinin yarısını tutdular və hətta, Avropa və Amerikanın mərkəzinə nüfuz edərək bu inkişaf etmiş insanların əlindən hər gün bir səngər alırdılar.

Belə isə bu bəhanəni əsas tutaraq kommunist qurluşunun mütərəqqi, demokratik quruluşun isə mürtəce və bədəvilər üçün münasib olduğunu demək olarmı?

Bundan əlavə inkişafdan geri qalma təkcə müsəlman ölkələrinə aid deyildir ki, bunu İslamla əlaqələndirək. Əksinə buddist, brahman, xristian və müsəlmanların yaşadığı digər Asiya və Afrika ölkələri də bu bədbəxtliklə üzləşmişlər. Təbii ehtiyatlarla zəngin olan bu iki qitənin günahı odur ki, qərbin tamahkar istilalarına məruz qalmışlar. Nə qədər ki, bu iki zəngin qitənin yeraltı və yerüstü sərvətləri onların məhsullarına möhtac olan qərb sənayesinin inkişafı üçün hazır xammal olacaqsa və diyarları kölə məskəninə çevriləcəksə, heç vaxt «mütərəqqi» deyilən ölkələrin sırasına qoşulmayacaqlar və heç vaxt əhaliləri də istər müsəlman, istərsə də qeyri-müsəlman olsun, öz «sahibkarlar»ı ilə bir səviyyədə durmayacaqlar.

İndiyə qədər gördüyümüz kimi, hər dəfə bir adla—istila, istismar, müştərək mənafelər, iqtisadi yardım və sair planlarla üzərimizdə hökmranlıq etməyə çalışmışlar. «İslamı təhsil almış kütləyə düzgün çatdırmaq üçün elə dəyişmək və ya yozmaq olarmı ki, elm ilə uyğun gəlsin»—sualına gəldikdə isə deməliyəm ki, İslam maarifini təşkil edən Quran və sünnəyə əsasən, onun qanunları əsla dəyişilməzdir və onları hər hansı mənaya yozmaq olmaz. İslam haqq bir dindir və "ziyalı"lara da ehtiyacı yoxdur. Əksinə onların haqq və həqiqətə ehtiyacları vardır. Allah-taala buyurur: "Dində icbar yoxdur və düz yol

aşkardır."[4] Yaxşı olardı ki, İslamın elmlə ziddiyyətini isbat etmək üçün belə boş sözlər deyil, ağılabatan nümunələr gətirsinlər.

**Sual 25.** Həzrət Məhəmməd (s) və həzrət Əli (ə) hər ikisi buyurublar: "İnsanın dəyəri öz əməlinə bağlıdır. Kimin övladı, hansı ailədən və nə rəngdə olması insana dəyər gətirməz." Siz bunu qəbul edirsinizmi?

**Sual 26.** Belə olan halda nə üçün şiələr həzrət Əlinin (ə) və həzrət Məhəmmədin (s) bütün nəslini başqalarından üstün və pak bilirlər?

**Cavab: (25-26).** İslamın nəzərində hamı qanun və ədalət qarşısında bərabərdir. Bu cəhətdən şah və dilənçi, güclü və zəif, kişi və qadın, qara və ağ, hətta, məsum Peyğəmbər və imamların başqaları ilə fərqi yoxdur. Kimisə bu qanundan istisna etmək və ya kiminsə əleyhinə təsir göstərib qanun azadlığını ondan almaq olmaz.

Seyidlərə ehtiram etməyin kökü Qurani-kərimə qayıdır. Quranda gələn bir ayəyə əsasən Allah-taala öz Peyğəmbərinə əmr edir ki, camaatdan onun qohum əqrəbası ilə dostluq edib məhəbbət göstərmələrini istəsin.[5] Bu istəyin sirri Peyğəmbərin vəfatından sonra məlum oldu və camaat o Həzrətin övladlarıyla elə bir rəftar etdilər ki, tarixdə heç bir rəhbər və başçının nəsli ilə belə rəftar etməmişdilər.

---

[4] "Bəqərə" surəsi, ayə: 256

[5] "Şura" surəsi, ayə: 23.

Peyğəmbərin vəfatından sonra seyidlərin rahatlığı yox idi. Onları öldürülür, kəsilmiş başlarını hədiyyə kimi bir şəhərdən başqa bir şəhərə aparır, diri-diri basdırır, dəstə-dəstə binaların divarında hörür, bəzilərini də uzun illərlə qaranlıq zindanlarda işkəncə verdikdən sonra zəhərləyirdilər.

Hicrətdən bir neçə əsr sonra az-çox müstəqillik və məzhəb azadlığı qazanan şiələr peyğəmbərin övladlarına və dostlarına olan zülmün qarşısında əks təsir göstərərək seyidlərin ehtiramına çalışırdılar.

**Sual 27.** Nə üçün İslamda donuz əti yemək haramdır?

**Cavab:** Donuz ətinin haram sayılması təkcə İslamda deyildir. İncildən və Tövratdan məlum olur ki, İslamdan əvvəlki səmavi dinlərdə də bu haram olubdur. Donuz ətinin haramlığının əsas hikməti onun sağlamlığa zərərli və nəcis yeyən heyvan olmasıdır.

**Sual 28.** İslamda hansı səbəbə görə spirtli içkilər haramdır?

**Cavab:** İslam dini təlim və tərbiyənin əsasını dərrakə üzərində qurubdur ki, insanın heyvanlardan üstünlüyü təkcə ondadır. Aydındır ki, spirtli içkilər və digər məstedicilər insan həyatının əsası olan dərrakəni məhv edib dini təlim-tərbiyənin məqsədini puç edir.

Müxtəlif cinayətlər, qanun pozğunluğu və avaralıqların əsas səbəbi ya sipirtli içkilərdir, ya da bu

işlərdə onun da payı vardır. Eləcə də hər gün bəşəriyyət aləmində spirtli içkilər nəticəsində yaranan insan tələfatına, ruhi və cismi xəstəliklərə, atadan uşağa irsi (genetik) yolla keçən mənfi təsirlərə göz yummaq olmaz.[6]

**Sual 29.** Ümumiyyətlə, sizin fikrinizcə İslam qanunlarının dəyişməyə qabiliyyəti varmı, ya yox?

**Sual 30.** Qəbul edirsinizmi ki, bu dəyişiklikdə dini rəhbərlər qabağa düşməli, ya da heç olmasa dəyişiklik olduqdan sonra onunla razılaşmalıdırlar?

**Cavab: (29-30).** Ötən bəhslərdə qeyd etdiyimiz kimi şəriət qanunları (Allahın sabit qanunları) dəyişilməzdir və din rəhbərlərinə ixtiyar verilmir ki, qabağa düşərək, ya arxada olaraq bu mövzu haqda müvəqqəti və ya qeyri-müvəqqəti razılığa gəlsinlər. Allah-taala Peyğəmbərə buyurur: "Əgər biz səni qorumasaydıq, İslamın mənafeyinə görə kafirlər ilə bəzi şərtlərdə razılaşardın və bu halda dünya və axirətin bədbəxtliyini sənə ikiqat dadızdırardıq."[7]

**Sual 31.** Şəxsən İslamın bütün qanunlarına və adətlərinə etiqadınız varmı?

**Cavab:** Müsəlmanlar arasında olan adət-ənənələrin əgər kitab və sünnədən dəlili olmasa, dəyəri yoxdur, şəriət qanunlarının isə kitab və sünnədən qəti

---

[6] "Maidə" surəsi, ayə: 91.

[7] "İsra" surəsi, ayə: 75.

dəlillləri olduğu üçün qəbul edilməsi vacibdir və onlardan boyun qaçırmağa icazə verilmir.

**Sual 32.** Həzrət Əli (ə) buyurub: "Valideyninizin müsəlman olduğu üçün müsəlman olmayın, özünüz ona iman gətirin və hər bir şeyi ağlınız ilə qəbul edin". Əgər hər bir müsəlmanın buna ixtiyarı olsa, onda İslamın hansı qanununu istəsə qəbul edər, qəbul edə bilmədiyini kənara qoyar. Bu barədə fikriniz nədir?

**Cavab:** Həzrətin kəlamı İslamın etiqadi məsələrinə aiddir ki, əql yolu ilə onlara iman gətirmək lazımdır. Əməli qanunlara gəlincə isə, onlara əməl olunmalıdır və onlar arasında fərq qoymağın mənası yoxdur.

Təkcə İslam qanunları arasında deyil, digər ictimai qanunlarda da fərq qoymaq düzgün sayılmır və onlar arasında fərq qoymaq cəmiyyəti dağıdıb parçalamaqdan başqa bir nəticə vermir. Məsələn, demokratiya hakim olan bir ölkədə insana azadlıq vermək olmaz ki, ağılları ilə uyğun gəlməyən maddəni qəbul etməsinlər. Nəticədə, xalqın bir hissəsi iqtisadiyyata aid olan qanunları, digər hissəsi ticarət qanunlarını, başqa bir qrup cinayət qanunlarını kənara qoyarlar. Sadəcə olaraq belə bir hərc-mərclik cəmiyyətin dağılmasından başqa bir nəticə verməz. Hər kəs demokratiyanı qəbul etməklə, qanunverici orqan olan parlamenti seçməklə bütün qanun maddələrini qəbul edərək qanun maddələrinin hər birini inkar olunmaz sayıb.

Eləcə də İslamın etiqadi məsələrini əql yolu ilə qəbul edən bir şəxs nübuvvətin səhih olmasını təsdiqləyərək iman gətirib ki, Peyğəmbəri-Əkrəmin gətirdiyi qanunları doğrudan da Allah-taala təyin edib və Allah-taala heç vaxt öz qanunlarında səhvə yol vermir və Öz bəndəsinin mənafeyini qorumaqdan başqa bir hədəfi yoxdur. Bu şəkildə iman gətirən bir şəxs, İslam qanunlarının hər birinin düzlüyünü və etibarını icmali halda təsdiq edir və onların hər birində olan məsləhətə təfərrüatı ilə elmi olmasa da onları tərkolunmaz sayır. Beləliklə, bəzi maddələri qəbul edib, bəzilərini isə tərk etməyin mənası yoxdur.

**Sual 33.** Necə fikirləşirsiniz, hər bir insanın istədiyi hər hansı dini qəbul etməyə azadlığı varmı və müsəlmanların bütün dinlərə ehtiram qoymaları lazımdırmı?

**Cavab:** Dinin həqiqəti dünya və insanın yaranışına aid olan bir sıra etiqadlardan və insanın həyatını o etiqadlar ilə uyğunlaşdıran bir sıra əməli vəzifələrdən ibarətdir. Deməli din formal bir şey deyildir ki, insanın ixtiyarında olsun və insan ürəyi hansı dini istəyirsə, qəbul etsin. Əksinə, din bir həqiqətdir ki, insan ona tabe olmalıdır. Necə ki, məsələn, "Biz günəşin nurundan istifadə edirik" cümləsi real bir həqiqətdir və heç bir insanın onun qarşısında ixtiyarı yoxdur ki, hər gün bir nəzər versin. İnsan məcburdur ki, onu bir həqiqət kimi qəbul edib öz yaşayışını onun üzərində qursun. Əgər doğrudan da hər hansı bir din:

"İnsanlar azaddırlar və müxtəlif dinlərdən hansını istəsələr qəbul edə bilərlər" – deyərsə, bu nəzər ilə özünün formal və qeyri-real bir din olmasını etiraf etmiş olur.

Allah təbarək və taala buyurur: «**Allahın yanındakı din İslamdır."[8] Başqa bir ayədə buyurur: "Hər kim İslamdan başqa dini seçsə, ondan qəbul olunmayacaq**».[9]

İslam dinlər arasında üç dini: Xristianlıq, Yəhudilik və Məcusiliyi möhtərəm sayır və Quran ayələrindən aydın olduğu kimi bu ehtiramın mənası budur ki, bu üç dinə etiqad bəsləyənlər haqq olmasalar da öz dinlərində qala bilərlər.

**Sual 34.** Nə üçün ay İslamın nişanəsi sayılır?

**Cavab:** İslamın ay adlı nişanəsi yoxdur.

**Sual 35.** Aya getmək barədə nəzəriniz nədir?

**Cavab:** İslamın aya və qeyrisinə səfər etmək barəsində nəzəri yoxdur. Qurani-kərim göy cismlərinin yalnız Allahın qüdrət nişanələri olmasından, öz heyrətləndirici nəzmi ilə tovhidə sübut olmasından və onların insana xidmətçi olaraq yaradılmasından söz açır.

**Sual 36.** Nə üçün ərəb dilini İslama etiqad və imanın zərurəti sayıblar? Quran, namaz və bu kimi

---

[8] "Ali-İmran" surəsi, ayə: 19.
[9] "Ali-İmran" surəsi, ayə: 85.

başqa vacibatlar gərək ərəbcə olsun, ya hər dildə ola bilər?

**Cavab:** Qurani-kərim məna cəhətdən möcüzə olmaqla yanaşı, nəzm baxımından da möcüzə olduğu üçün onun ərəb nəzmi qorunmalıdır. Namazın ərəb dilində oxunmasının səbəbi budur ki, namazda hər rəkətdə müəyyən miqdarda Qurandan ("həmd" surəsi, ya başqa surə) oxunmalıdır. Başqa bir tərəfdən dinin əsas mənbəyi olan ayə və rəvayətlər ərəb dilindədir. Müsəlmanların ərəb dilinə olan diqqəti bu səbəbə görədir.

**Sual 37.** Əgər bir şəxs iki kuzə düzəldib birinə bir qulp, o birisinə iki qulp yapışdırsa, bir qulpu olan kuzəyə eyib tuta bilməz ki, nə üçün bir qulpu var. Hətta, əgər o kuzələr gözünün qarşısında olmasalar belə, özü düzəltdiyi üçün onların necəliyini, naxışlarını və şəkillərini bilir. Yaxud əgər rəssam bir mənzərə çəkib əvvəldən axıra qədər öz zövqü ilə onu rəngləyibsə mənzərənin necəliyini bilir və deyə bilməz ki, "mən bilmək istəyirəm, bu mənzərə yaxşıdır, ya pis." Çünki öz əli ilə bir şeyi yaradan şəxsin onun haqqında axtarış aparması lazım deyildir.

Amma əsas məsələ buradadır ki, Allah-taala yerin, göyün bütün mənəviyatını və maddəsini yaradıb və dünyanın işlərini əvvəldən axıra kimi hamısını bilir. Çünki Özü onları yaradıb. Bundan əlavə əgər bilməsə, aciz sayılar, halbuki Allah-taala aciz ola bilməz və acizlik onun müqəddəs zatından uzaqdır.

Bəs xəlq etdiyi bəşərin aqibəti və qisməti Allah-taalanın öz əlindədirsə, onları imtahan etməyə nə ehtiyacı var?!

**Cavab:** Allah-taalanın insanı imtahan etmə haqqındakı şübhənizin cavabı budur ki, Allah-taala Özünün Quran təlimlərində yaranışın sirrini iki yolla bəhs edir.

1. İctimai məntiq yolu ilə; orta təbəqədən olan camaat ilə öz dillərində danışıb onlara təlim verir. Bu məntiqə görə yaradan Allah mütləq hakimdir və hamı onun bəndəsidir. Insanların axirət və əbədi dünyasına hazırlıq sayılan dünya həyatı onun istəyi, iradəsi və əmri ilə uyğun olmalıdır. Axirət aləmində isə öz əməllərinin əcrini alacaqlar. Bu baxışa görə dünya həyatı insan yaşayışının imtahan mərhələsi olacaq, imtahan edən isə Allahın özüdür və Quran ayələri bu nəzərdən bəhs edir. Buyurur:

«كُلُّ نَفْسٍ ذَائِقَةُ الْمَوْتِ وَنَبْلُوكُم بِالشَّرِّ وَالْخَيْرِ فِتْنَةً»

**"Hamı öləcək, sizi imtahan məqsədilə xeyir və şər ilə yoxlayacayıq.**"[10]

2. Xalis əqli məntiq, obyektivlik və dünyanı həqiqi tanımaq yolu ilə; Bu baxışa əsasən dünyanın yaranışını və onda olan yaxşı, pis hadisələri bir rəssamın tabloda çəkdiyi çirkin və gözəl, yaxşı və pis mənzərəyə bənzətmək olar. Onun çəkdiyi təsvirlərdə

[10] "Ənbiya" surəsi, ayə: 35

artıq-əskik söz-söhbət ola bilməz və imtahan məsələsi də irəli gəlməyəcək.

Bir şeyi unutmayaq ki, belə təsəvvür olunmalıdır ki, insanın tabloda olan rəsmi öz ixtiyarı ilə iş görür, insanın işinin pis və yaxşısı var və gələcəkdə olan yaxşı və pis rəsmlər onun bu işləri ilə birbaşa əlaqədədir.

**Sual 38.** Allahın iradəsi anidir və iradə etdiyi şey həmin an mövcud olur. Bu halda bəs, nə üçün göylərin yaradılışı altı gün çəkmişdir?

**Cavab:** Bu, fəlsəfi bir şübhədir və ali fəlsəfədə araşdırılaraq kifayət qədər cavablandırılmışdır. Qeyd olan şübhə təkcə yaradılışın altı gündə xəlq olmasına deyil, ümumiyyətlə bütün mövcudatın xilqətinə şamildir. Aləmdə olan bütün hadisələrin xilqəti hərəkət qanununa tabedir və hər bir şeyin vücudundan asılı olaraq bu hərəkət xüsusi bir tədriclə baş verir. Bu isə onun vücudunun səbəbi olan ani və dəfi amillə uyğun gəlmir. Beləliklə, sizin bu sualınız aləmdə olan bütün məxluqata şamildir və təkcə göylərin altı gündə yaranmasına məxsus deyildir.

Bu şübhənin cavabında deməliyik ki, Allah-talanın iradəsi onun zati sifətlərindən deyildir. Iradə Allahın fel atributlarından (sifətlərindən) olub zat məqamından xaric və fel məqamından hasil olur. Belə isə əgər "Allah-taala filan şeyi iradə etdi"—dedikdə, onun mövcud olma amillərinin təşkili nəzərdə tutulur (mövcud aləm səbəb-nəticə qanunlarına tabedir).

Deməli, iradə ilə iradə olunan şeyin uyğunluğundan asılı olaraq vücudu ani olan şeylərdə iradə ani və tədrici olan şeylərdə isə tədricidir. Burada heç bir şübhə qarşıya çıxmır. Çünki fel sifəti ilə bağlı bir hadisədir və zatdan kənar olduğu üçün zatda da bir dəyişilik lazım gəlməyəcəkdir.

Amma şübhənin əsas tərəfi "hadis"in "qədim"lə[11] əlaqəsi, yəni, dəyişənin sabitlə, yaxud zamanı məhdud olan əşyaların zamandan xaric olan səbəblə rabitəsindən ibarətdir. Fəlsəfə və kəlam elmlərində bu məsələ ətraflı araşdırılıb və əlavə məlumat üçün ora müraciət olunsun.

Bu məqalədə qısa şəkildə onu demək etmək olar ki, böyüklük və kiçiklik anlayışları kimi tədricilik, dəyişiklik və zaman anlayışları da nisbi mə`nalardır ki, bu aləmdəki əşyalar yalnız bir-biri ilə müqayisə olunarkən bu sifətlərə (tədricilik, dəyişiklik və zaman) malik olurlar. Həmin əşyalar Allaha nisbətdə nəzərdə tutularkən isə, bu nisbətin sabit olduğu üçün artıq bu sifətlərlə xarakterizə olunmurlar.

Qurani-Kərim iki ayədə bu mənanı çatdırır: «إِنَّمَا أَمْرُهُ إِذَا أَرَادَ شَيْئًا أَنْ يَقُولَ لَهُ كُنْ فَيَكُونُ» və

[11] İslam fəlsəfəsində "qədim" dedikdə əzəli varlıq, "hadis" dedikdə isə sonradan yaranan varlıqlar nəzərdə tutulur.

«وَمَا أَمْرُنَا إِلَّا وَاحِدَةٌ كَلَمْحٍ بِالْبَصَرِ»

Birinci ayəyə əsasən bir şeyi iradə etdiyi zaman Allah-taalanın gördüyü iş onu vücuda gətirməkdir. İkinci ayəyə əsasən əşyaların vücudu Allaha nisbət sabit və zamandan xaricdədir, yəni əşyalar özləri ilə müqayisədə dəyişən və tədricidir, Allaha nisbət sabit, dəyişilməyən qeyri-tədricidir.

**Sual 39.** İmamdan sual olunur ki, aləmin yaranmasına hansı sübutunuz var? İmam buyurur: "Yumurtaya baxın, iki müxtəlif növ mayedən təşkil olub və ondan müxtəlif cücələr yaranır. Bunun özü aləmin yaranmasına sübutdur."[12] Sual edən sakit olur. İmamın bu cavabı aləmin yaranmasına necə sübutdur?

**Cavab:** Yumurtanın iki maddədən təşkil olması və ondan müxtəlif növ cücələrin əmələ gəlməsi, aləmin yaranmasına sübutdur və bu yaranış sonuncu səbəbə nisbət verilməlidir. Çünki müxtəlif xassələrə malik olan bu müxtəlif formaların xəyali bir şey olduğunu təsəvvür etmək olmaz, çünki bunlar müxtəlif mahiyyətlərə və müxtəlif xassələrə malik olan həqiqət və reallıqlardır.

Bunların arasında heyrətli dəqiq nizam-intizam hakim olduğu üçün onların xilqətini təsadüfi, səbəbsiz təsəvvür etmək qeyri-mümkündür. Əksinə,

[12] "Əbul Futuh" təfsiri, 2-ci cild, səh: 301

bütün bunları yaradan bir səbəb vardır. Onlar arasındakı müxtəlifliyin həqiqi olduğu üçün onları yeknəsəq olan maddənin nəticəsi hesab etmək olmaz. Əgər maddə üçün tərkib müxtəlifliyi və hərəkət müxtəlifliyi təsəvvür etsək, bu zaman tərkib və hərəkət müxtəlifliyinin haradan yaranması sualı ortaya çıxır.

Beləliklə, surətlərin, formaların və xassələrin müxtəlifliyini metafiziki bir amilə nisbət vermək və nəticədə yumurtanın öz tərkibi və xassələri ilə birlikdə hansısa səbəbdən yarandığını qəbul etmək lazımdır.

Yumurtada olan bu xüsusiyyət dünyada olan digər varlıqlarda da vardır. Hətta, maddə öz vücudunda surət və formaya möhtacdır. Nəticədə, təbiət dünyası, geniş nizamı ilə birlikdə öz yaranışında səbəbə möhtacdır.

**Sual 40.** Qurani-kərimdə "Əhzab" surəsinin 40-cı ayəsindən başqa, Peyğəmbərin digər peyğəmbərlərdən üstün və sonuncu olmasını bildirən ayə varmı?

**Cavab**: «وَلَكِن رَّسُولَ اللَّهِ وَخَاتَمَ النَّبِيِّينَ» "O, Allahın elçisi və reyğəmbərlərin sonuncusudur"[13] ayəsi ilə yanaşı İslam dininin davamlılığını və həmişəliyini sübut edən ayələr də

[13] "Əhzab" surəsi 40-cı ayə

Peyğəmbərin sonuncu peyğəmbər olmasına dəlalət edir:

«و أُوحِيَ إِلَيَّ هذا القرآنُ لأُنذِرَكم و مَن بَلَغَ» "Bu Quran mənə sizi və onun gələcəkdə çatacağı insanları xəbərdarlıq edib qorxutmaq üçün vəhy olundu."14

Həmçinin:

« لَا يَأْتِيهِ الْبَاطِلُ مِن بَيْنِ يَدَيْهِ وَلَا مِنْ خَلْفِهِ» وَإِنَّهُ لَكِتَابٌ عَزِيزٌ

"Şübhəsiz ki, Quran çox dəyərli bir kitabdır və heç bir tərəfdən batil ola yol tapa bilməz"[15]

Çünki dini gətirən şəxsin sonuncu peyğəmbər olmasını qəbul etmədən bu dinin daimi olmasını təsəvvür etmək mümkün deyildir.

Eləcə də Qurani-kərimdə və digər səmavi kitablarda Peyğəmbərin fəzilət və üstünlüyünə bildirən ayələr vardır: «و نزّلنا عَلَيكَ الكِتابَ تِبيانًا لِكُلِّ شَيءٍ» "Biz Quranı sənə hər şeyi izah etmək üçün nazil etdik"16.

«وَأَنزَلْنَا إِلَيْكَ الْكِتَابَ بِالْحَقِّ مُصَدِّقًا لِّمَا بَيْنَ يَدَيْهِ مِنَ الْكِتَابِ وَمُهَيْمِنًا عَلَيْه»

"Biz Quranı sənə haqq olaraq özündən əvvəlki ilahi kitabları təsdiq edən və onları qoruyan olaraq endirdik."17

---

14 "Ənam" surəsi 19-cu ayə

15 "Fussilət" surəsi 41 və 42-ci ayələr

16 "Nəhl" surəsi 89-cu ayə

17 "Maidə" surəsi 48-ci ayə

«شَرَعَ لَكُم مِنَ الدِّينِ ما وَصَّي بِهِ نوحاً وَالَّذي أَوحَيناً إِلَيكَ وَ ما وَصَّينا بِهِ إِبراهيمَ و موسي و عيسي»

**«Allah sənə vəhy etdiyi ayələri və Nuha, İbrahimə, Musaya və İsaya tapşırdıqlarını sənin üçün qanun etdi».** 18

Bu ayələr Rəsuli-əkrəmin üstünlüyünə sübutdur. Qurani-kərimdə Peyğəmbərin dəvətindən başqa bir şey yoxdur və Peyğəmbərin dəyəri onun dəvətinin dəyərindədir.

**Sual 41.** Əllamə Məclisi "Tovhid" kitabında müvəhhidlərin (təkallahlıların) xüsiyyətləri barəsindəki bəhsdə Rəsuli-Əkrəmdən bunları bəyan edir:

«و إنَّ أَهلَ التوحيد لَيَشفَعونَ فَيُشفَعونَ»

«**Müvəhhidlər qiyamət günü həm şəfaət edəcək, həm də şəfaət olunacaqlar**».

Açıqlayın ki, müvəhhidlər hansı dəstəyə şəfaət edəcək? Bu şəfaət müvəhhidlərdən qeyrisi üçün mümkün deyildir. Onların özlərinin isə şəfaətə ehtiyacları yoxdur, çünki onların özləri şəfaət edirlər.

Cavab: «و إنَّ أَهلَ التوحيدِ لَيَشفَعونَ فَيُشفَعونَ» rəvayəti iki mənadan birinə işarə edir. Bu hədisə əsasən ya müvəhhidlər dedikdə kamil müvəhhidlər və alimlər nəzərdə tutulur.

---

18 "Şura" surəsi 13-cü ayə

«وَلَا يَمْلِكُ الَّذِينَ يَدْعُونَ مِن دُونِهِ الشَّفَاعَةَ إِلَّا مَن شَهِدَ بِالْحَقِّ وَهُمْ يَعْلَمُونَ» Ondan başqasını çağıranlar şəfaət edə bilməzlər. Elm və bəsirət ilə haqqa (Allahın varlığına) şəhadət verənlər isə müstəsnadır"[19].

Başqa ayədə buyurulur:

«إلا مَن أَذِنَ لـه الـرحمن و قـال صَوَابـاً»

«**Ruhun və mələklərin səf-səf duracağı gün Allahın izin verdiyi şəxslərdən başqa heç kəs danışmayacaq, danışan da doğrunu deyəcəkdir**»[20].

Ya da şəfaətdən məqsəd müvəhhidlərin müstəzəflərə olan şəfaətidir ki, Allah-taala onlar haqda buyurub:

«وَآخَرُونَ مُرْجَوْنَ لأَمرِ اللهِ إمّا يُعَذِّبُهُم و إمّا يَتوبُ عَلَيهِم»

«**Başqalarının işi isə Allaha qalıb. Allah ya onlara əzab verəcək, ya da tövbələrini qəbul edəcək**».[21]

Bəşəriyyətin əksəriyyətini təşkil edənlər isə müstəzəflərdir.

**Sual 42.** Əvvəlki suallarda—İslamdan qabaq mövcud olan quldarlıq quruluşunun İslam tərəfindən nə üçün ləğv olunmaması haqda olan suala qısa şəkildə cavab verib, geniş izah üçün "Əl-mizan" təfsirinin altıncı cildinə müraciət etməmi

---

[19] "Zuxruf" surəsi 86-cı ayə

[20] "Nəbə" surəsi 38-ci ayə

[21] "Tövbə" surəsi 106-cı ayə

bildirmisiniz. Amma “Əl-mizan” təfsirində mənim sualıma cavab verilməyib. Mənim sualım bundan ibarətdir: Əgər İslam yeni yaranan zaman bir sıra məsləhətlərə görə quldarlığa icazə vermişdisə, insanların fikir və düşüncəsinin təkamüldə və inkişafda olduğunu və bir gün quldarlığı pisləyəcəyini bilə-bilə nə üçün onu ləğv etmədi. Bu, əqli cəhətdən də düzgün deyildir ki, bir dəstə başqa bir dəstəni istismar edib onlardan hər cür azadlığı alsınlar. Əgər kafirləri İslam mühitində tərbiyə olunmaq üçün qul tuturdularsa, onların müsəlman olan övladları nə üçün onlara tabe olub qul olmalı idi? Hətta əgər: "İslam onların azad olunması üçün müxtəlif yollar qoymuşdur"— desəniz, yenə də bu cavab quldarlığa icazə verilməsinin səbəbini izah etmir. Görün, bəzi dini-ibadi ya digər məsələlərdə qulları necə alçaq dərəcədə qərar verir.

**Cavab:** Yazmısınız ki, İslamda quldarlıq şübhəsinin cavabı üçün “Əl-mizan”ın altıncı cildinə müraciət etsəniz də şübhəyə qaneedici cavab verilməyibdir. Sizin suallarınız qısa şəkildə bundan ibarətdir ki, insanın inkişaf və təkamüldə olan fikri insandan azadlığın mütləq halda alınmasını pisləyir və bu iş əqli cəhətdən qəbul olunmur. Əgər: "İslamın kafirləri qul tutmaqdan məqsədi onların İslam mühitində tərbiyə olması idi" - deyilsə, bu sual qarşıya çıxır ki, onların uşaqlarının günahı nə idi ki, İslamı qəbul etdikdən sonra da qul olaraq qalsınlar və

əgər "İslam onların azad olması üçün bir sıra yollar təyin edib"— deyilərsə, yenə də bu cavab İslamda quldarlığa icazə verilməsinin fəlsəfəsini açıqlamır.

Görünür, “Əl-mizan” təfsirindəki bu mövzunu diqqətlə oxumamısınız. Buna görə məsələni yenidən izah etməyimiz lazımdır.

Hər şeydən əvvəl bilmək lazımdır ki, insan ixtiyarlı və azad yaranmasına baxmayaraq mütləq azadlığa malik deyildir. İctimaiyyətdə yaşayan və təbii olaraq ictimaiyyəti qoruyan qanunları gözləməli olan insan mütləq sərbəstliyə malik deyildir ki, ürəyi istəyən hər bir işi etsin. Deməli, insanın mütləq azadlığı qanun çərçivəsindən kənardır. Başqa sözlə desək, insan mütləq azadlığa yox, nisbi azadlığa malikdir. Dövlətin qanunları cəmiyyətin adi fərdlərinin azadlığını məhdudlaşdırır. Eləcə də bəzi insanlar xüsusi şəraitdə azadlığı əldən verirlər. Uşaqlara, dəlilərə, cinayətkar düşmənə və oğruya hər cür azadlıq vermək olmaz.

İkincisi odur ki, burada kiminsə "qul" adlanıb adlanmaması yox, məsələnin mahiyyətini mühümdür. Yəni hətta zahirdə qul adlanmayan bir şəxsin həqiqətdə qul olması mümkündür.

Qul o kəsə deyilir ki, iradəsi və iş görmək müstəqilliyi onun əlindən alınmış olsun. Təbiidir ki, bir insanın işində və iradəsində müstəqilliyi olmasa, onun iradə və işinə başqası malik olacaq. Elə buna görə qul alveri edirlərmiş.

Quldarlıq məsləsi keçmiş millətlər arasında dörd növdə icra olurdu.

1. Ailə başçısı öhdəsində olan qız və oğlanı satmağa imkanı var idi;

2. Kişi bəzi halda öz arvadını satır, ya kirayəyə verir, ya da bağışlayırdı.

3. Cəmiyyətin başçısı öz qüdrətindən istifadə edib əli altda olanlardan istədiyini öz ixtiyarına alırdı, necə ki, padşahları qullara malik adlandırırdılar.

4. Müharibədə qələbə çalan iki tərəfdən biri əgər cinayətkar düşməni əsir götürsəydi, onu özünə qul edir, ya öldürür ya da bağışlayırdı.

İslam dini dörd növ quldarlığın əvvəlki, üç növünü ləğv etdi və valideynin övlada, kişinin arvada olan hüququnu məhdudlaşdırdı. İslam hökumətinin genişlənməsi ilə bu növ quldarlığın kökü kəsildi.

Amma dördüncü növü qəbul etməkdən başqa yol yox idi, çünki İslam dini fitri dindir, fitrətin hökmü bundan başqa deyildir. Yer üzündə heç bir insan və ya cəmiyyət tapmaq olmaz ki, onun adını və müqəddəsatını aradan aparmaq istəyən düşməni qarşısında sakit otursun, öz varlığını müdafiə etməsin və ya düşmənə qələbə çaldıqdan sonra qələbə adı ilə kifayətlənib düşməni iradə və əməldə azad qoysun və onun iradə və iş müstəqilliyini əlindən almasın. Nə qədər ki, insan var, onun fitrəti bu hökmü edib və edəcək.

Yazmısınız ki, bir insanın başqa bir insanı istismar etməsini və hər cür azadlığın ondan alınmasını əql qəbul etmir. Sizin dediyiniz bu məsələ əvvəlki üç növ quldarlıqda olunmuşdur, dördüncüdə yox.

Yazmısınız ki, bu günkü mütərəqqi fikir quldarlığı pisləyir. Siz qeyd etməsəniz də şübhəsiz ki, mədəniyyət dünyası dedikdə azadlığın alınmasını pisləyən qərb aləmini nəzərdə tutursunuz. Necə ki, təxminən, 80 il bundan əvvəl çoxlu səylərin nəticəsində quldarlığın ümumi formada ləğv olunmasını elan etdilər və özləri demişkən, bu vasitə ilə bəşəriyyət aləmindən bu biabırçılığı götürdülər. Dünya əhalisinin və hətta müsəlmanların ki, dinləri bu işə icazə verirdi, boyunlarına haqq qoydular.

Amma diqqət edək ki, bu mütərəqqi və insansevər dövlətlər quldarlığın ləğv olunmasını nə qədər icra etdilər?

Afrikada və bəzi ölkələrdə yayılmış olan quldarlığın birinci növünü (uşaq və arvad satmaq) ləğv etdilər. Bunu İslam on dörd əsr öncə ləğv etmişdi. Amma İslamın ləğv etdiyi üçüncü növ quldarlığı bu inkişaf etmiş ölkələrdə ləğv etdilərmi?

Asiya və Afrikada milyonlarla insan yüz illərdir ki, onların istismarı və əsarəti altında (iradəsiz) köləlik etmirlərmi? Bu fərqlə ki, kölənin kölə olması adı çəkilmir, keçmişdə ayrı-ayrı fərdlər üzərində görülən bu olan işlər bu gün cəmiyyətlər üzərində icra edilir!

İnkişaf etmiş dövlətlər Ikinci Dünya müharibəsindən sonra öz istismarında olan dövlətlərə özləri demişkən—"siyasi dərkə malik olanlara" yavaş-yavaş azadlıq və müstəqillik verdilər. Lakin belə azadlıq verib suverenlik bağışlamaq mədəni insanların azadlığını öz mülkiyyətləri bildiklərinə sübut deyilmi? Onlar belə fikirləşirlər ki, özləri demişkən, vəhşi, ya geridə qalmış millətlərin öz iradə və əməllərində azadlıq haqqı yoxdur və nə qədər həyatda olsalar da mədəni və qabaqcıl dövlətlər üçün kölə və qul olmalıdırlar.

Bundan əlavə, onların verdiyi bu müstəqillik və azadlıq ad və forma dəyişikliyindən başqa bir şey deyildir. Bu mütərəqqi insanların köləlik markasını heç bir vəchlə onların üzərindən götürmək mümkün deyildir.

Eləcə də köləliyin dördüncü növündə (müharibə əsirlərindən və məğlub olmuşlardan iradə və əməl azadlığının alınmasında) hansı üslubdan istifadə etdilər? İkinci Dünya müharibəsindən sonrakı vəziyyəti araşdırdıqda bu məsələ həll olunur.

Müttəfiq ölkələr Almaniyanı məğlub etdikdən sonra şərtsiz olaraq Almaniyaya tökülüb ağır sənayesini və hər nə var idisə, apardılar. Düşmənin məşhur adamlarını ya həbs etdilər ya da öldürdülər. Düşmən ölkəsini lazım bildikləri hər bir cəhətdən öz nəzarətləri altına aldılar. İndi qırx ilə yaxındır ki, bu işdən keçir, amma hələ də onların tam azadlıqları

yoxdur və şərq Almaniyasının problemi öz yerindədir. Hələ də Alman alimləri Sovet ölkəsindədirlər.

Müttəfiqlər təkcə düşmənin döyüşçü qüvvəsinə qarşı deyil, hətta düşmənin təslim olmuş uşaqlarına, sonradan dünyaya gələn və hazırda böyüməkdə olan körpələrinə də bu qədər təzyiq göstərdilər. Hətta, demirlər ki, bu iş böyüklərin günahı idi və uşaqların bu barədə təqsiri yoxdur.

Müttəfiqlərin yeganə dəlili budur ki, deyirlər: "Biz varlığımızı mühafizə edirik. Düşmənin silahı yerə qoyub şərtsiz təslim olması o demək deyildir ki, onu özbaşına qoymaq olar! Müstəsna hallardan başqa uşağı atadan və gələcəyi keçmişdən ayrı təsəvvür etmək olmaz. "

Bəşər tarixində həmişə qələbə çalan tərəf, məğlub olmuş düşmənin iradə və əməl azadlığını almaq üçün bu dəlilə əsaslanıb. Bu indi də belədir və gələcəkdə də belə olacaq, çünki, cinayətkar düşməni azad qoymaq olmaz. Düşmən məzlum, biçarə və kiçik sayılmaz. Əgər İslam qanunlarına diqqət etsəniz, görərsiz ki, İslam döyüş əsirləri üçün həmin normaları və fitri rəftarı nəzərə alır. Bu fərqlə ki, onların siyasi oyunlar altında rəhmsiz və namərdliklə gördüyü işləri, İslam son dərəcə sədaqətlə və mərdanə icra edir.

Əgər İslamda hərbi kafiri əsir tutduqdan sonra qul edirlərsə, sonra İslama gəlməsini onun azad olunmasına səbəb bilmirlərsə və həmin əsirlərin

uşaqlarını da (həmin uşaqlar ki, indi iyirminci əsrdə öz keçmişlərindən dəm vurub milli mərasimləri yad edirlər) ataları kimi qul edirlərsə, bu heç də həqiqətdən uzaq deyildir.

Bundan əlavə, İslam dini mümkün olan hər bir vasitə ilə onların rifahı və tez bir zamanda azad olmaları üçün çalışıb.

**Sual 43.** Mənim bu sualım mühüm suallardandır ki, ziyalılar ona əsaslanaraq dini təlimlərə etiraz edirlər və dindarlar da bu problemi hiss edirlər. O budur ki, Quran insanların yaranmasını babaları Adəmdən və Adəmin yaranmasını torpaqdan bilir. Halbuki, bir sıra antropoloqlar uzun illər tədqiqat və təcrübədən sonra bu haqda müxtəlif nəzəriyyələr söyləyirlər. Onların nəzəriyyələri tamamilə Quranla fərqlidir. Bu alimlər uzun illər insan və heyvan üzərində apardıqları təcrübədən sonra bu nəzəriyyəni söyləyirlər. Ümidvarıq ki, bu mövzuya aydınlıq gətirəcəksiniz.

**Cavab**: Qurani-kərim mövcud insanların nəslinin ilk yaranışını iki müəyyən şəxsdən—Adəm və Həvvadan bilir və Quran ayələri bunu qətiyyətlə təsdiqləyir. Qəti dəlil olmadan onun zühurundan əl götürmək olmaz. Biz bu haqda "Əl-Mizan" təfsirində "Nisa" surəsinin əvvəlində qısa şəkildə bəhs etmişik.

**Sual 44.** Həzrət Əlinin (ə) «Uşaqlarınızı gələcək üçün tərbiyə edin»—kəlamını qəbul edirsiniz?

**Sual 45.** Əgər qəbul edirsinizsə, onda bu hədis İslam qanunlarının zaman və məkana görə dəyişilməsinin zəruri olduğuna sübut deyilmi?

**Cavab: (44-45).** Bu, «Nəhcül-bəlağə»də həzrət Əlidən (ə) nəql olunan mürsəl hədislərdəndir. Hədis bunu bildirmək istəyir ki, uşaqları günün adət-ənənəsinə əsaslanaraq tərbiyə etmək düzgün deyildir, çünki, müəyyən bir zamanın adət-ənənəsində qalmaq insanın həyatını inkişafdan saxlayır. Misal üçün, bir şəxs at, ulağ ilə səfər etməyə adət edibsə, o, bununla kifayətlənəcək və heç vaxt maşın kəşf edib ondan istifadə etmək, yolların çala-çökəyini düzəldib asfalt etmək fikrinə düşməyəcək.

O, bu mənada deyil ki, övladlarınızı şəriət qanunlarına müti tərbiyə etməyin. Əgər doğrudan da məna bu olsaydı, bu hədisi rədd etməli idik. Çünki, Peyğəmbəri-Əkrəmdən və imamlardan aşkar və qəti göstəriş vardır ki, Quran ilə müxalif olan hədisi qəbul etməyək. Elə bunun üçün hər bir hədis əvvəlcə Quran ilə ölçülüb sonra qəbul olunmalıdır.

**Sual 46.** Əgər belədirsə, nə üçün dini rəhbərlər həmişə bu işi yubadırlar?

**Cavab:** Dini rəhbərlərin ilahi hökmləri (şəriəti) dəyişdirməyə zərrə qədər ixtiyarları yoxdur və onların əsas vəzifəsi dini məsələləri əsil mənbə sayılan kitab və sünnətdən ələ gətirməkdir. Misal üçün, hər bir hüquqşünas hüquqi qanunları

konstitusiyadan ələ gətirə bilər, amma konstitusiyanın hansı maddənisə dəyişə bilməz.

Şəriət hökmlərini dəyişməyə nəinki alimlərin hətta şəriəti gətirən Peyğəmbəri-Əkrəmin və şəriətin keşikçiləri və müəllimləri olan imamların belə azacıq da olsa ixtiyarları yoxdur.

Bu növ sual və etirazlar qərb təfəkküründən qaynaqlanır. Bu təfəkkürə görə şəriət sahibləri olan peyğəmbərlər istedadlı və mütəfəkkir insanlar olublar. Öz ölkələrinin mənafeyinə görə qiyama qalxıb insanları düz yola dəvət ediblər və zamana uyğun olaraq öz fikirlərinə çatanı qanun qərar verərək xalqa öyrədiblər. Özlərini Allahın elçisi, öz pak düşüncələrini səmavi vəhy, Allah kəlamı, şəriət, Allahın dini və öz düşüncələrinin qaynağını isə Cəbrail və vəhy mələyi adlandırıblar.

Aydındır ki, bu nəzəriyyəyə əsasən səmavi dinlərin qanunlarının, o cümlədən İslam şəriətinin zəmanənin məsləhətinə görə tənzimlənməsinin zərurətindən danışmaq və bu 40 sualın arasında olunan etirazları irəli sürmək  düzgün sayılardı.

Amma bu nəzəryyənin sahibləri səhvə yol veriblər və Peyğəmbərin dəvətini izləmədən, əsassız olaraq güman üzündən rəy veriblər.

Digər səmavi kitabların sənədi və keçmiş peyğəmbərlərin həyatlarının tarixi şübhəli və qaranlıq olsa da, İslamın səmavi kitabı olan Qurani-kərimin mətni, Peyğəmbəri-Əkrəmin (s) həyatı və O Həzrətin

canişinlərindən qəti şəkildə bizə gəlib çatan hədislər bu nəzəriyyəni yanlış və səhv sayır.

Biz indi İslama tərəfkeşlik edib onun müdafiəsində durmuruq. Amma hər hansı bir şəxsin bu dinin mənbəyindən qısa məlumatı olsa, Qurani-kərimi və din rəhbərlərinin, xüsusilə bu kitabı gətirən şəriət sahibinin kəlamlarını gözdən keçirsə, görər ki, bunların hamısı başdan-başa o nəzəriyyəni rədd edir. Qurani-kərim açıq-aşkar buyurur: "Allahın dinində Peyğəmbərin heç bir müdaxiləsi yoxdur və yalnız Allahın sözünü çatdırır." Yenə aşkar bəyanla buyurur: "Allahın dini bəşər fikrinin məhsulu deyil, dünyanın sahibi Allah tərəfindən Peyğəmbərin vasitəsi ilə bəndələri üçün göndərilmiş hökmlər və qanunlardır". "Qurani-kərimi Peyğəmbərin özü yazıb və Allahın göndərdiyini iddia edir"— deyənlərə Qurani-kərim xitab edərək buyurur: "Həqiqətən, Quran Allahın kəlamıdır və bəşər kəlamı deyil. Onun məzmunu bəşər fikrinin məhsulu deyildir." Başqa ayədə buyurur: "Səmavi vəhy və nübuvvət Peyğəmbəri-Əkrəm ilə tamamlanacaq və Quranın hökmləri Qiyamətə qədər etibarlı və silinməzdir"

## VƏLIƏHDLIK YOXSA CANIŞINLIK ?

**Sual 47.** Qəbul edirsiniz ki, həzrət Zeynəbin (ə) vəliəhdlik məqamı var idi?

**Sual 48.** Əgər o, vəliəhdlik məqamına malik idisə, onun bu məqamı və öhdəsində olan başqa işlər bunu

göstərmir ki, İslamda qadının ləyaqəti olsa, kişilərlə ayaqlaşa bilər?

**Cavab: (47-48)** Bu məsələ üçün heç bir sənəd yoxdur və əsasən İslamda vəliəhdlik adında məqam olmayıb. Əgər vəliəhd dedikdə canişinlik nəzərdə tutulursa, qəti dəlillərə görə üçüncü İmamın canişini dördüncü İmamdır, nəinki, bacısı həzrət Zeynəb.

Düzdür, rəvayətlərə görə xanım Zeynəb imam Hüseyn (ə) hərəkatının iştirakçısı kimi Yezidin diktator hakimiyətinə və Bəni-Üməyyə zalımlırına qarşı mübarizə apardığı zaman imam Hüseynin (ə) vəsiyyətinə əsasən bir sıra ağır vəzifələri öz üzərinə götürmüşdü və bu vəzifələri yerinə yetirməklə öz elmi, əməli ləyaqətini və fövqəladə dini şəxsiyyətini sübuta çatdırdı. Əsasən bilmək lazımdır ki, İslamın nəzərində cəmiyyətdə insanın dəyəri elminə və təqvasına (şəxsi və ictimai dini xidmətlərə) görədir. Qeyri-islami cəmyyətlərdəki sərvət, böyüklük, qohum-əqraba, ailə şərafəti, dövlət postlarına və hərbi məqamlara malik olmaq kimi üstün və məşhur olmağa səbəb olan işlərin isə heç bir dəyəri və üstünlüyü yoxdur ki, kimin üçünsə iftixar sayılsın və onu başqalarından üstün etsin.

İslamda heç bir nüfuz üstünlüyünü və zorakılığı əsas qərar vermək olmaz. Beləliklə, dindar bir qadın dini üstünlüklərdə kişilər ilə ayaqlaşaraq əgər ləyaqəti olsa, bütün kişilərdən üstün də ola bilər. Üç

məsələdən (hökumət, qəzavət, hərb) başqa bütün ictimai işlərdə kişilər ilə bir yerdə iştirak edə bilər.

Allah-taala buyurur: «**Sizin Allah yanında ən əziziniz çox təqvalı olanınızdır**».[22] Başqa ayədə buyurur: «**Heç vaxt bilənlər ilə bilməyənlər bərabər olmayacaqlar**».[23]

# BƏZİ ŞƏRİƏT HÖKMLƏRİNİN BƏYANI

Oğrunun əlini kəsmək İslam şəriətinin hökmlərindən biri hesab olunur və bu hökm mahiyyətinə görə iki əsas məsələdə təhlil edilir:

1. Pis iş gördüyünə görə oğrunun cəzalanması.
2. Bu cəzalanmanın əlin kəsilməsi ilə sona çatması.

Birinci məsələ oğrunun cəzalanmasıdır ki, müqəddəs İslam dini bu qanunu təyin etməkdə tək deyildir. Əldə olan məlumata görə bəşər tarixində həmişə insan cəmiyyətlərində (ibtidai insanların ailə cəmiyyətlərindən tutmuş qəbilələr, tayfalar, dini, demokratik və diktator hökumətlər hamısı daxil olmaqla) oğrular üçün cəza təyin edib icra edirdilər. Bu hazırda da belədir.

Bəşəriyyət aləmində bu qərar (oğrunun cəzalanması) bu əsas üzərindədir ki, həqiqətən, insan üçün ən əhəmiyyətli və qiymətli şey onun həyatıdır.

---

[22] "Hücurat" surəsi, ayə: 13.

[23] "Zumər" surəsi, ayə: 6.

Bu həyatın səadətini təmin etməyi özü ən lazım və vacib vəzifə bilir, yəni ictimai mühitdə kollektiv formada çalışır və həyat vəsaiti olan sərvət və mal-dövlət əldə edib ondan istifadə edir. Həqiqətdə öz həyatının yarı hissəsini ki, onun üçün müəyyən qiymət təyin etmək olmaz, ömrünün digər hissəsinin tələbatı üçün sərf edir.

Eləcə də məlumdur ki, hər bir malı qoruyub saxlamağın dəyəri o malın özünün dəyəri ilə bərabərdir. Əgər bir malın toxunulmazlığı təmin olunmazsa və məhv olmaqdan qorunmazsa, ən az dəyəri belə olmaz.

Buradan belə nəticə çıxır ki, insanın malının toxunulmazlığı onun ömrünün yarısının dəyərini daşıyır. Necə ki, insanın canının toxunulmazlığı onun bütün ömrünün dəyəri ilə bərabərdir.

Eləcə də hər hansı bir cəmiyyətin məhsulunun ətrafında olan hasarı sındırıb məhv etmək, o cəmiyyətin həyatının yarısını sındırıb dağıtmaq ilə bərabərdir. Bir cəmiyyətin canlarının toxunulmazlığını aradan götürmək isə o cəmiyyətdəki bütün insanların hamısını məhv etməyə bərabərdir.

«مَن قَتَلَ نَفْسًا بِغَيْرِ نَفْسٍ أَوْ فَسَادٍ فِي الأَرْضِ فَكَأَنَّمَا قَتَلَ النَّاسَ جَمِيعًا»

«**Bir kimsəni öldürməmiş və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürən kəc bütün insanları öldürmüş kimi olur**».24

Şübhəsiz ki, məsələ belə olduğu halda insan cəmiyyətinin malına xələl yetirən oğru ağır cəzalar ilə cəzalanmalıdır ki, qanunun icrası onu cəmiyyətin malına təcavüz etməkdən çəkindirsin.

İkinci məsələyə gəldikdə, müqəddəs İslam dini oğrunun əlinin kəsilməsini əmr edir. Qisas haqda verilən qanunlardan başa düşüldüyü kimi Islam dini cəza qanunlarını icra edərkən cinayətkarın şəxsə vurduğu zərəri cinayətkarın özünə göstərmək istəyir ki, onun işinə cəza və başqaları üçün ibrət olsun. Başqalarının həyatının yarısını yox etməklə bərabər olan bir cinayətin qarşısını istər az ya çox miqdarda pul cəriməsi ilə, istərsə də neçə gün və ya neçə ay zindan yolu ilə almaq olmaz. Uzun zamandan bəri dünyanın müxtəlif ölkələrində icra olunan bu cür cəzaların bu fəsadın qarşısını almaq üçün azacıq olsa belə nəticə verməməsi dediklərimizə əyani sübutdur.

İslamda bu həqiqi hesab üzrə oğrunun ömrünün zəhmətinin təxminən yarısı ilə bərabər olan bir əli kəsilir.

Bu bəyanlardan bizim bir sıra ziyalılarımızın şübhələrinin əsassız olması aydın olur. (Çox təəssüflər olsun, oğurluq bizim ölkədə bir keçici

---

[24] "Maidə" surəsi, ayə: 32.

xəstəlik kimi maddi toxunulmazlığı aradan apardığı kimi, bu bəla bizim elmi mühitlərdə də kök salaraq düzgün fikirlərin təhrifinə səbəb olmaqdadır!).

Onlar deyirlər: "Bir insan Allahın verdiyi əllə həyatın sonuna kimi çalışaraq özünü dolandırmağa qadir olduğu halda, nə üçün yoxsulluq üzündən gördüyü bir səhvin ucbatından əli kəsilərək ömrünün axırına kimi yazıq olmalıdır?"

Həqiqətdə bu fikri söyləyənlər cinayətin özünü qəbul edərək insanpərvərlik və mərhəmət hissindən təsirlənərək bu qənaətə gəlmişlər. Başqa sözlə desək, onlar belə fikirləşirlər ki, oğru öz pis əməli ilə cinayət törətsə də çox vaxt yoxsulluq səbəb olur ki, hətta abırlı insan belə cinayətə əl atsın. Belə hallarda mərhəmət hissi belə şəxsin əlinin kəsilib həmişəlik yazıq olmasına razılıq vermir.

Bu fikrin yanlışlığı çox aydındır. Fərdi hüquqların bərpasında insanpərvərlik və mərhəmət hissinə yer verməyin eybi yoxdur və bu məsələ İslamda da (Quran ayələrindən məlum olduğu kimi) özünəməxsus yer tutur. Misal üçün, qisasın növlərində haqq sahibindən və ya mal məsələlərində mal sahibindən istənilib ki, din qardaşlarına güzəştə gedərək öz haqlarına göz yumsun və onları çox da zəhmətə salmasın.

Amma ictimai hüquqlarda bu hisslərə tabe olub cinayətkar bir şəxsə haqq qazandırmaq və onu cəzalandırmamaq həqiqətdə, cəmiyyətə qarşı böyük

cinayətdir. Oğru bir şəxsin abrını qorumaqla ona bəraət qazandırmaq milyonlarla günahsız insanın haqqına göz yummaq, onlara qarşı ehtiramsızlıqdır.

*İti dişli yırtıcıya mərhəmət, Mal-qaraya insafsızlıqdır, əlbət!*

Məsələ burasındadır ki, cinayətkar bir insan üçün təyin olunan qanun maddəsində cəmiyyətin vəziyyəti nəzərə alınmalı və ictimaiyyətin çəkdiyi zərər aradan qaldırılmalıdır. Təkcə oğrunun tərbiyə olunması və ya mal sahibi nəzərə alınmamalıdır.

İslamdakı bu hökm ilə bağlı olan digər bir şübhə budur ki, İslam, yeməyə çörək tapa bilməyib fəqirlik və fəlakət üzündən oğurluğa məcbur olan bir insanla oğurluğu özünə sənət edib cəmiyyəti zara gətirən və hər gün ailələrdə günahsız insanları bədbəxt edən şəxs arasında fərq qoymur və onların cəzalanma keyfiyyətini eyni bilir.

Ötən bəhslərə qısa bir izah əlavə etməklə bu şübhənin cavabı aydın olur: İslamda cinayət hesab olunan və cəzalanmaya səbəb olan işlər üçün təkcə cinayətin son mərhələsində cəza nəzərdə tutulur. Məsələn, zina etmiş şəxsə yüz şallaq vururlar[25]. Əgər bu işi bir neçə dəfə təkrarlansa və qazinin xəbəri olmadığı üçün onu cəzalandırmasa, sonradan bu iş sübut olduqda onun üzərində yalnız bir hədd (yüz şallaq) icra edilir.

---

[25] Bu cəzalara fiqhi terminlə "hədd" deyilir.

Beləliklə, aydın oldu ki, oğrunun həddi qazinin yanında sübut olunan son oğurluqdur. Bu haqda oğurluğun böyüklüyü və kiçikliyi arasında fərq yoxdur və oğrunu oğurluğa vadar edən səbəb və şəraitin bu məsələ ilə əlaqəsi yoxdur. Daimi sənəti oğurluq olan köhnə oğru ilə toyuq ya aftafa oğurlayanın arasında fərq qoyulmur. Cəmiyyətin əsasına zərbə vurduqları üçün bunların fərqi yoxdur.

Bəziləri etiraz edərək deyirlər ki, axı, kiminsə əlini kəsməklə onu cəmiyyətə yük edib ölkənin işçi qüvvəsini zəiflətmək hansı məntiqlə düz gəlir?

Onlara demək lazımdır ki, əli kəsmək dedikdə, sağ əlin baş barmağından başqa dörd barmağın kəsilməsi nəzərdə tutulur. Bir də ki, hər bir cəmiyyətdə təbii olaraq müxtəlif növ sağlam və əlil insanlar tapılır və beləlalri üçün cəmiyyətdə müxtəlif cür işlər vardır. Bir adamın bir əlində dörd barmağının olmaması onun üçün iş qıtlığı yaratmır və onun əlinin kəsilməsi də cəmiyyətin yükünün ağırlaşması və yaxud ölkənin istehsalının qarşısının alınması deyildir. Elə buna görədir ki, əgər belə şəxs ikincə dəfə oğurluq etsə, onun cəzası o biri əlin yox, kəsilən ələ əks ayağının kəsilməsidir.

Hətta əgər fərz etsək ki, bir neçə oğrunun əlini kəsməklə cəmiyyətin yükü ağırlaşıb ölkənin iqtisadiyyatı ləngiyəcəkdir, lakin çox az və nəzərə gəlməyən miqdarda işçi qüvvəsinin sıradan çıxması hesabına dövlətin büdcəsini qorumaq milli mənafe və

əmniyyəti təhlükəyə salmaqdan daha əhəmiyyətli deyildirmi?!

Doğrudan da nə gülünc məntiqdir. Əgər oğrunun əli cəza məqsədi ilə kəsilsə, cəmiyyətə yük olacaq, amma əgər onunla işləri olmasa və icazə versələr ki, öz "peşə"sini davam etdirsin, ya zindana atsalar, ya yaşayış xərcini versələr cəmiyyətə yük olmayacaq?!

Bizim 36 milyonluq ölkəmizdə indiki halda vəziyyət göz önündədir. Oğru və cibkəsənlər cəmiyyətə yük deyildirmi? Təsadüfi hallarda böyük və ya kiçik oğurluğa əl atan saysız-hesabsız insanlardan başqa, bu pis işi özünə peşə edən oğru və cibkəsənlərin sayı neçə minə çatır!

Onların bir hissəsi azad və qorxusuz öz "peşə"lərini davam etdirir və gündəlik yaşayışlarını başqalarının zəhməti nəticəsində təmin edirlər. Bundan əlavə, qəzetlərdə oxuyuruq ki, hər gün oğurluq hadisələrində xoşagəlməz hadisələr, ölüm, can xəsarəti və namus xəyanəti baş verir.

Hökumətin əlinə düşən başqa bir hissəsi isə oğruların saxlanılması üçün təşkil olunan mərkəzlərdə həbs müddətini keçirərək çox rahatlıqla millətin zəhmətindən bəhrələnir və eyni halda həbsdə olan müddətdə zindandakılarla tanışlıqda oğurluq fənnini bir sinifdə keçirirlər! Bundan əlavə zəhmətkeş insanların qazancından böyük məbləğdə onların cinayətlərini araşdıran dövlət təşkilatlarına ayrılır.

Etiraz edənlər deyirlər: "Əgər ibrət üçündürsə, Amerikada alimlər və psixoloqlar camaata dərs olsun deyə, cinayət filmlərini kinoteatrlarda göstərdilər, amma düzəlmək əvəzinə cinayət dərsi götürdülər. Həmin gün filmdə gördüklərinə oxşar cinayətləri o şəhərdə həyata keçirtdilər və ümumi meydanlarda indiyə kimi edam edilənlər ibrət dərsi almayıb".

Şübhəsiz, kinoteatrlar cinayət və sevgi filmləri ilə, mətbuat isə cinayət və sevgi dastanları ilə fəsadı təbliğ edən vasitələrdir. Onlar hadisəni elə qururlar ki, insan həmişə haqqı cinayətkarda və həyat xoşbəxtliyini sevgidə, məsuliyyətsizlikdə güman edir.

Amma vicdanlı insanın vicdanı və mütəfəkkir insanın fikri bunu qəbul edir ki, əgər təlim-tərbiyə düzgün şəkildə əksini tapsa, hökmən öz təsirini bağışlayacaq və ümumi cəzalandırma ibrət dərsi olub çoxlarını düz yola vadar edəcəkdir.

Əlbəttə, təbii səbəblər kimi ictimai səbəblər də həmişə yox, əksər hallarda öz nəticəsini tapır. Cəza qanunlarından hədəf budur ki, fəsad azalsın və istisna halına salınsın. Sözsüz ki, birdəfəlik onun kökünü kəsib bir daha olmayacağı vəziyyətinə gətirmək qeyri-mümkündür.

## Qanun və Allaha iman

İnsanın kamala çatıb həyatda xoşbəxt olması yalnız ictimai yaşayış sayəsində əldə olunur. Çoxşaxəli həyati əməllər var ki, insan onların hamısını həyata

keçirtmək istəyir. Bu zaman onun başqaları ilə həmkarlığa ehtiyacı var. Bu iş ictimai insanı qanun-qaydaya möhtac edir ki, insanın hüququnun qoruyucusu olsun və hər kəsin cəmiyyətdə olan bəhrəsini təyin etsin. Yəni insanlar öz qüvvələrinə görə işləsinlər, sonra isə işlərin nəticələri mübadilə olunsun. Belə ki, hər kəs öz işinin dəyəri qədər və ictimai etibarı miqdarında başqaların işindən bəhrə aparsın, güclülük və zəiflik zülmə səbəb olmasın.

Bu qayda-qanunlar o vaxt təsirli ola bilər ki, insanları cinayət törətməkdən çəkindirən və ictimai normalara riayət etməyə həvəsləndirən bir sıra qanunlar olsun və bu qanunların həyata keçirilməsi üçün hakim qüvvə ədalət, insaf və düzgünlüklə cəmiyyətə rəhbərlik etsin.

Bu arzu o zaman həyata keçər ki, icra orqanının həm cinayətdən xəbəri olsun, həm də cinayətkarı cəzalandırmağa qüdrəti çatsın. Cinayətdən heç kimin xəbəri olmayanda (necə ki, belə cinayətlər az deyil) cinayət törətmək üçün maneçilik olmayacaq. Eləcə də hakim qüvvənin cinayətkarı cəzalandırmaq üçün kifayət qədər qüvvəsi çatmasa, yaxud səhlənkarlıq və süstlük etsə, qanun pozuntusu və başqalarının hüququna təcavüz etmək yayılacaq. Çünki, dəfələrlə deyildiyi kimi, insan mənfəət axtarandır və hətta başqaları zərərə düşsə də, onlardan öz xeyrinə istifadə etməyə çalışır.

Əsas müsibət o zaman yaranır ki, bütün qüdrətlər icra qüvvəsində və rəhbərlikdə toplansın, o, bu misilsiz qüdrətə söykənərək başqalarını zəif saysın və heç kimdə onun iradəsini tənzimləyən qüvvə qalmasın. Nəticədə isə, onun istəyi camaatın bütün işlərinə mütləq halda qələbə çalsın.

Tarixdə zalım rəhbərlər haqsız yerə xalqı əsarətdə saxlayaraq zorakılıq və zülmlə məşğul olublar. İndi də belə hakimləri çox görmək olar.

Beləliklə, ədalətli qanunlar təyin olunsa da və cinayətlər üçün ağır cəzalar nəzərdə tutulsa da, insanı cinayətdən çəkindirən ən güclü vasitə gözəl və yüksək əxlaqdır.

Bəzi inkişaf etmiş ölkələrdə nizamı və ədaləti gördükdə insan aldanıb güman etməməlidir ki, qanunlar və hüquqi normalar ədalətin yaranmasına səbəb olubdur. Çünki, bu millətlərin düşüncə forması başqaları ilə fərqlidir. Onlar yaşadıqları cəmiyyəti fikirləşib öz xeyir və zərərlərini cəmiyyətin xeyir və zərərində bilirlər. Amma zəif millətlərdən istifadə edib geridə qalmış ölkələri istismar edirlər. Zahirdə isə ədalətdən və insafdan dəm vururlar. Onlar, keçmiş zalım hakimlərin insanlara qarşı etdiyi hərəkətləri əllərinin altında olan millətlərə qarşı edirlər. Bu fərqlə ki, bu gün şəxsin yerinə cəmiyyəti qoyurlar və sözlər öz mənasını dəyişib əks mənada işlənilir. Azadlıq, şərafət və fəziləti həqiqətdə köləliyə, zülmə, zillətə və pisliyə deyirlər.

Qanun pozuntularının tam şəkildə qarşısını almaq yalnız cəmiyyəti yüksək insani əxlaq əsasında tərbiyə etməklə mümkün ola bilər. Şübhəsiz ki, insanın səadətini təmin edib onu yaxşı işlər görməyə sövq edən əxlaq dedikdə yalnız tovhidə bağlı olan əxlaq nəzərdə tutulur. Yəni şəxs inansın ki, insanın yaşadığı bu aləmin yaradanı var, O həmişə olub və olacaq. Onun elmindən, hətta, ən kiçik şeylər də gizli qala bilməz. Onun qüdrəti heç bir şeyin qarşısında məğlub ola bilməz. Bütün bu varlıqlara ehtiyacı olmadığı halda onları ən kamil nizamda xəlq edibdir. Nəhayət hamısını özünə tərəf qaytaracaq, yaxşı əməl sahiblərinə yaxşı mükafat və pis iş görənlərə cəza verəcək. Sonra onlar nemət, ya əzabda əbədi qalacaqlar.

Məlumdur ki, əgər əxlaq belə əqidəyə bağlı olsa insan öz işində Allahın razılığından başqa bir şey fikirləşməyəcək və təqva onu günah etməkdən çəkindirəcək. Əgər əxlaq bu cür əqidəyə bağlı olmasa, insanın dünyanın müvəqqəti ləzzətlərindən bəhrələnməsindən başqa bir hədəfi olmayacaq.

Əlbəttə, belə bir şəxsin cəmiyyətin məhv olub aradan getməməsi üçün yaxud başqalarının onu tərifləməsi və ölümündən sonra adının qızıl sətirlərlə tarixin səhifələrində yazılması üçün bir sıra işlərdə öz əməllərinə məhdudiyyət qoyması mümkündür. Ancaq aydındır ki, xalqın onu tərifləməsi təkcə onların xəbərdar olduqları işlərdə mümkündür. Odur

ki, belə bir şəxsin gizlində və camaatın gözündən uzaqda yaxşı işlər görməsini və pis işlərdən çəkinməsini iddia etmək olmaz.

Hökumətin müdafiəsi və vətən yolunda fədakarlıq göstərmək üçün insanları onların ölümdən sonra yaxşı adlarla xatırlanması ilə həvəsləndirmək isə ölümdən sonrakı həyata etiqadı olmayan bir şəxs üçün xurafatdan başqa bir şey ola bilməz. Çünki, insan məhv olduqdan sonra camaatın onu tərifləməsinin və yaxşı adla xatırlamasının onun üçün heç bir xeyri yoxdur. Hansı ağıllı insan başqası üçün öz həyat və səadətinə göz yummağa hazır olar? Bir halda ki, bunun ona heç bir faydası olmayacaq.

Deməli, bütün bu işlərin Allaha imanla və tovhidlə müqayisədə heç bir dəyəri yoxdur və günahların və qanun pozuntusunun qarşısını almaqda onun yerini verə bilməz.

## İslam və müqavilələr

Dinsiz cəmiyyətlərin, xüsusən də inkişaf etmiş mədəni cəmiyyətlərin, ictimaiyyətdən və ictimai qanunlardan maddi yaşayışda gözəl və bol istifadə etməkdən başqa hədəfləri yoxdur. Deməli, onların öz maddi məqsədlərini təmin edən qanunlardan başqa hər hansı bir normalara riayət etmələri üçün heç bir stimul olmayacaq. Çox təbiidir ki, belə bir mühitdə xalqın maddi istəkləri ilə uyğun olan hallar istisna olmaqla mənəviyyatın heç bir dəyəri olmayacaq. Belə bir

cəmiyyətdə düzlük, doğruluq, mərdlik, mehribanlıq və yaxşılıq, eləcə də digər əxlaqi fəzilətlərə o zaman əməl olunar ki, onların maddi mənafeyini təmin etsin. Amma əgər xalqın maddi mənafeyi ilə uyğun olmasa, nəinki onu lazım bilməzlər, hətta onların əksinə əməl etməyi lazım hesab edərlər.

Elə bu cəhətdəndir ki, hakimiyyət orqanları və rəsmi təşkilatlar özlərinin vəzifələrini cəmiyyətin maddi mənafeyini qorumaqdan başqa bir şey bilmirlər və bağladıqları müqavilələrdə öz dövlətlərinin müvəqqəti maraqlarını və zamanın məsləhətini nəzərə alırlar. Bu müqavilələrin dəyəri onları imzalayan ölkələrin beynəlxalq gücünə və qoşunun qüvvəsinə tabedir. Təbidir ki, bu müqavilələrin davamı iki tərəfin qüdrətinin bərabər olmasına bağlıdır, amma onlardan biri qüdrətləndikdə isə, müxtəlif bəhanələr və saxta böhtanlarla bağladığı müqaviləni əsassız sayır. Hegemon dövlətlərin beynəlxalq müqavilələri pozarkən bu cür bəhanələrə əl atması isə beynəlxalq qanunların zahirinin qorunmaq üçündür, çünki bu qanunları pozmaqla onların öz xalqlarının həyatı və ya bir sıra taleyüklü maraqları təhlükəyə düşür. Əgər belə olmasaydı, bütün müqavilələri üzürsüz və bəhanəsiz pozar və eləcə də yalan, xəyanət, təcavüz və zorakılığı maddi mənafeyi əldə etmək üçün maneə bilməzdilər, çünki onların nəzərində mənəviyyat və əxlaqın heç bir dəyəri yoxdur. Əksinə onları öz cəmiyyətlərinin hədəfə çatması, yəni maddi həyatdan bəhrələnməsi üçün kömək bilirlər.

Dünyada baş verən hadisələri qısa şəkildə gözdən keçirdikdə, xüsusən də son əsrin beynəlxalq hadisələrini müşahidə etdikdə müqavilələrin dəyəri, onların sındırılması səbəbləri aydın olur və bizim sözümüzə canlı şahid ortaya çıxır.

Amma İslam nə maddi həyatı insanın həqiqi həyatı bilir və nə də maddi mənfəətlərdən bəhrələnməyi həqiqi səadət sayır. İslamın nəzərində insanın həqiqi həyatı həm maddəyə və həm də mənaya şamildir. Islam həqiqi xoşbəxtliyi o şeylərdə bilir ki, dünya və axirətin səadətinə səbəb olsun. Bu fikir və düşüncəyə görədir ki, İslam öz qanunlarını insanların özləri üçün mənfəət güman etdiyi işlər üzərində deyil, fitrət üzərində qurmuş, eləcə də öz dəvətini insanların əksəriyyətinin daxili hiss və duyğulardan qaynaqlanan istəkləri əsasında deyil, haqqın tərəfdarı olmaq əsasında qərar vermişdir.

Qurani-Məcid buyurur:

«فَأَقِمْ وَجْهَكَ لِلدِّينِ حَنِيفًا فِطْرَةَ اللَّهِ الَّتِي فَطَرَ النَّاسَ عَلَيْهَا لا تَبْدِيلَ لِخَلْقِ اللَّهِ ذَلِكَ الدِّينُ الْقَيِّمُ»

**Tərcümə**: «**Üzünü hənif dininə tərəf tut, bu Allahın yaratdığıdır və xalqı onunla yaradıb. Allahın yaratdıqları dəyişilməzdir, sabit din budur**». [26]

Başqa ayədə buyurur:

[26] "Rum"surəsi, ayə: 30.

«هُوَ الَّذِي أَرْسَلَ رَسُولَهُ بِالْهُدَى وَدِينِ الْحَقِّ لِيُظْهِرَهُ عَلَى الدِّينِ كُلِّهِ وَلَوْ كَرِهَ الْمُشْرِكُونَ»

**Tərcümə**: «**Müşriklərin xoşuna gəlməsə də, Islamı bütün dinlərə qalib etmək üçün Öz elçisini hidayət və haqq din ilə göndərən Odur**».[27]

Yenə buyurur:

«بَلْ أَتَيْنَاهُم بِالْحَقِّ»

**Tərcümə**: «**Onlara haqqı gətirdik**».[28] Həmçinin buyurur:

«وَلَوِ اتَّبَعَ الْحَقُّ أَهْوَاءَهُمْ لَفَسَدَتِ السَّمَاوَاتُ وَالْأَرْضُ وَمَن فِيهِنَّ»

**Tərcümə**: «**Əgər haqq onların nəfslərinin istəklərinə tabe olsaydı, göylər, yer və onlarda olanlar məhv olardı**».[29]

Bu əsasa görə İslam həm həqiqi etiqadları, həm də yüksək əxlaqı və ləyaqətli işləri nəzərə almışdır. Öz təlimatında nə maddi cəhətdən çatışmazlığı var və nə də mənəvi cəhətdən. Həmişə insani fəzilətləri əsas bilir, istər camaatın xeyrinə olsun, istərsə də ziyanına. Bunlar yəqinən, haqq və həqiqət yolundan xaric olanlardan başqa heç kimin ziyanına olmayacaq.

Məhz buna görədir ki, müşriklər öz müqavilələrini sındırdıqları üçün Allah taala da öz peymanını sındırmasından xəbər verir, lakin bununla belə onlara

---

[27] "Tovbə" surəsi, ayə: 33.

[28] "Möminun" surəsi, ayə: 90.

[29] "Möminun" surəsi, ayə: 71.

mərhəmət edərək dörd ay möhlət verir. Əhdlərində vəfadar olan müşriklərə isə o günlər baş verən hadisələrin müşrikləri zəlil etməsinə və onların İslamın əzəməti qarşısında xar olmasına baxmayaraq əhd-peyman qarşısında vəfalı olmağı göstəriş verir[30]. Eləcə də Peyğəmbərə əmr edir ki, düşmənlərin müqaviləyə xəyanət edəcəyi ehtimalı olduqda  müqaviləni pozun, amma öz qərarınızı rəsmi surətdə elan edin və bu hökmün səbəbini bəyan edərək buyurur: Allah-taala xəyanəti sevmir.

## Yuxu görmək

1. Avropa təbiətşünasları yuxunu həqiqət saymırlar və onun xarici hadisələr ilə olan əlaqəsinindən bəhs etməyi elmi dəyərə malik bilmirlər. Amma bəzi psixoloqlar yuxu haqqında tədqiqat aparıb təbiətşünasların əksinə olaraq, gizli işlərdən, ya gələcək hadisələrdən xəbər verən yuxulara istinad edərək onları təsadüfi bir iş bilməyiblər.

Qurani-kərimdə peyğəmbərlərin və digər insanların yuxuları nəql və təsdiq olunub. Həzrət İbrahimin İsmaili qurban etməsi barəsində gördüyü yuxu, həzrət Yusifin yuxusu və o həzrətin zindanda yoldaşlarının gördüyü yuxu, Misir padşahının yuxusu və Rəsuli-Əkrəmin (s) Məkkə fəthinin haqqında gördüyü yuxuları

---

[30] Yəni öz düşmənlərinə qalib gələn zaman onlarla amansız rəftar edib bütün müqavilələri pozan bu günкü hegemon dövlətlərdən fərqli olaraq İslam dini düşmənlərə qalib gələrкən onlarla müqaviləni pozmadı.

misal vurmaq olar. Peyğəmbəri-Əkrəm (s) və imamlardan nəql olunan rəvayətlərdə buna şahid tapmaq olar.

2. Biz hamımız gizli işə sübut olan, ya elmi problemləri həll edən, ya gələcək hadisələri agah edən yuxuları ya özümüz görmüşük, yaxud da başqalarından eşitmişik. Bu yuxuları, xüsusilə, yozmağa ehtiyacı olmayan aşkar yuxuları təsadüfi hesab etmək və real hadisələrlə heç bir əlaqəsi olmadığını söyləmək mümkün deyildir.

Əlbəttə, inkar olunası deyil ki, orqanizm pozğunluğu, xəstəliklər, yorğunluq, dolu qarınla yatmaq və digər bu kimi subyektiv səbəblərin və eləcə də, istilik, soyuqluq və bu kimi obyektiv səbəblərin xəyal qüvvəsində təsiri var və bu qüvvə də yuxuda təsir edir. Məsələn, əgər biri güclü hərarət, ya kəskin soyuq şəratindədirsə, yuxuda od şöləsi yaxud qar və buz görür. Əgər bir adamın orqanizm pozğunluğu olsa, qarışıq və mənasız yuxular görür. Eləcə də əxlaqi və ruhi sifətlər yuxuda öz təsirini qoyur. Bu səbəbə görə yuxuların çoxu daxili və xarici səbəblər üzündən yaranan xəyalların nəticəsidir və həqiqətdə o səbəblərin təsirinin keyfiyyətini göstərir. Təbiətşünaslar təkcə bu səbəbləri araşdırıb yuxunun həqiqət olmaması nəticəsinə gəliblər. Bu səbəblərin təsiri inkar edilmədiyi kimi, bəzi yuxuların da həqiqət olmasını və xarici işlər ilə əlaqəsini inkar etmək olmaz.

3. Əgər bir şəxs filan gün filan hadisənin baş verəcəyini qabaqcadan yuxuda görürsə və həmin hadisə

həmin zamanda baş verirsə, demək olmaz ki, onun ruhu hadisə baş verməzdən öncə onunla əlaqə tapdı, çünki, varlıq və yoxluq arasında vücud əlaqəsi qeyri-mümkündür. Eləcə də bir nəfər yuxuda filan yerdə müəyyən bir nişanəsi olan küp və o küpdə müəyyən miqdarda qızıl olmasını görürsə və yuxudan ayıldıqdan sonra oraya gedib o yeri qazaraq küpü çıxarırsa demək olmaz ki, yuxu gördüyü zaman onun ruhu o küplə birləşir, çünki, ruhun maddi əşyalarla birləşməsi yalnız hiss üzvləri ilə mümkündür və uzaq məsafədə yerin altında olan bu qab hiss üzvləri ilə dərk olunmur. Buna görə də alimlər deyiblər ki, ruhun bu növ hadisələr və əşyalarla əlaqəsi onları yaradan səbəblərlə birləşmə yolu ilədir.

**İzah**: Varlıq dünyası üç aləmə şamildir: 1.Təbiət aləmi; onunla tam tanışlığımız var. 2. Misal aləmi; o, vücud mərtəbəsinə görə təbiət aləmindən yuxarıdadır, onun varlıqları maddəsiz surətlərdir (formalardır). Misal aləmi maddi varlıqların yaradılış səbəbdir. 3. Əql aləmi; misal aləmindən yuxarıdadır və ondakı varlıqlar surətsiz (formasız) və maddəsizdir. Əql aləmi də öz növbəsində misal aləmini yaradılış səbəbdir.

İnsanın ruhu mücərrəd olduğu üçün metafiziki aləmlər ilə ünsiyyətdə olur. Yuxuda olarkən hissi idraklarla məşğul olmadığı üçün ünsiyyətdə olduğu aləmlərə qayıdır və öz istedadına görə o aləmdə bir sıra həqiqətləri müşahidə edir. Mücərrəd əqli varlıqları (əql aləmini) dərk etmək qüvvəsinə malik olan kamil ruh

səbəbləri "külli"[31] şəkildə dərk edir, onun səviyyəsinə çatmayan ruh isə, həqiqətləri "cüzi" surətdə dərk edir. Necə ki, biz külli sürəti çox sürətli cismin təsəvvürü ilə və əzəmətin mənasını dağın təsviri ilə hekayət edirik. Əqli mücərrədlik mərhələsinə çatmayan ruh misal aləmində dayanır və bəzən əşyaların yaranma səbəbini misal aləmində həqiqi surətdə müşahidə edir. Bu elə aşkar yuxulardır ki, çox vaxt düzgün və pak insanlar görürlər. Bəzi vaxt misal varlığını onlar ilə ünsiyyətdə olan surətdə dərk edir. Necə ki, elmi nur və cəhaləti zülmət surətində görür, hətta, zehnin bir mənadan başqa mənanın ziddinə dəyişməsi mümkündür.

Bu yuxulardan biri çox məşhur yuxudur ki, belə nəql edirlər: Bir kişi tanınmış yuxu yozan Ibn Sirinin yanına gəlib belə deyir: Yuxuda görürəm ki, əlimdə bir möhür var və camaatın ağzını, övrətini onunla möhürləyirəm. İbni Sirin deyir: Sən azan deyən olacaqsan, camaat sənin azan deməyinin vasitəsi ilə oruc tutacaqlar və yeməkdən, cinsi əlaqədən çəkinəcəklər.

Deyilənlərdən belə nəticə çıxır ki, yuxu iki növdür: 1. Aşkar yuxu; yuxu görənin ruhu öz gördüklərindən narahat olmur və onu yozmağa ehtiyac görmür. 2. Aydın olmayan yuxu; bu yuxuda ruh gördüklərindən narahat olur. Bu cəhətə görə onu yozmağa və onun

---

[31] İslam məntiqində çoxlu əşyalara aid olan anlayışlara "кülli", yalnız bir əşyaya aid ola bilən anlayışlara isə "cüzi" deyilir. Məsələn, "şəhər" кülli, "Məккə" isə cüzi anlayışdır.

zehni surətini həqiqi və ilk surətə qaytarmağa ehtiyac var, məsələn, nuru elmə, zülməti cəhlə yozmaq kimi.

Aydın olmayan yuxular da iki yerə bölünür: 1. O yuxulardır ki, onlarda nəql olma, hekayət məlumdur və asanlıqla onları əslinə qaytarmaq olur. (keçmiş misallar kimi) 2. Ruhun təsiri nəticəsində dolaşıq vəziyyətə gələn və yozulması qeyri-mümkün olan yuxular. Bu cür yuxuları "Əzğasi əhlam" adlandırırlar. Onlar puç və yozumsuz qalır. Bu, qədim psixoloqların yuxu haqda bəhslərinin xülasəsidir və Quran-kərimdə onların sözlərinə qüvvət tapmaq olar. Məsələn, ruhun yuxu halında metafiziki aləmə qayıtması mövzusunda bu iki ayədən istifadə etmək olar:

«**Gecələr sizin ruhlarınızı alan Odur**».[32]

«**Allah, insanlar öldüyü zaman və yuxuda olan zaman onların ruhlarını alar. Ölümə hökm olunmuş kəslərin ruhlarını saxlayar. Qalanların ruhunu isə (yuxudan oyandıqda) qaytarar**».[33]

Bu mübarək ayələrin zahiri budur ki, ruh yuxu halında bədəndən götürülür və zahiri hisslər ilə əlaqəsi kəsilib Allaha tərəf qayıdır. Bu, ölüm halında qayıtmağa oxşar olan bir qayıdışdır.

Eləcə də yuxunun üç növ olmasına işarə olunub. Məsələn, həzrət İbrahim (ə) və Rəsuli-Əkrəmin (s) yuxuları birinci növ yuxu sayılır. Həzrət Yusifin zindan

---

[32] "Ənam" surəsi, ayə: 60.

[33] "Zumər" surəsi, ayə: 42

yoldaşlarının yuxusu ikinci növ yuxulardandır. Aydın olmayan və qarışıq yuxular da vardır ki, Misrin yuxu yozanları padşahın yuxusunu "Əzğasi əhlam"dan bildilər.

## Kəbə və onun xüsusiyyətləri

Kəbə evinin İbrahim Xəlilur-Rəhman (ə) tərəfindən tikilməsi yəqinidir. O zaman Kəbə ətrafında sakinləşib özlərinə oranı vətən edənlər də onun övladı İsmail (ə) və əsli Yəməndən olan və Curhum adı ilə tanınan tayfanın insanları idi. Bu müqəddəs evin özü təxminən, dördbucaqlı şəklindədir. Onun küncləri dörd cəhətə: şimal, cənub, şərq və qərbə tərəf olduğu üçün külək nə qədər güclü olsa da evin küncü küləyi yarır və külək evə zərər vurmur.

Kəbə evini həzrət İbrahim (ə) ucaltmışdır. Həzrət Əlidən (ə) rəvayət nəql olunub ki, əvvəl Əmaliqə tayfası, sonra Bəni-Curhum (və ya əksinə) Kəbənin tikintisini təzələyiblər.

Kəbənin rəhbərliyi hicrətdən əvvəl ikinci əsrdə Rəsuli-Əkrəmin babalarından olan "Quseyy ibn Kilab"a çatdıqda onu söküb yenidən möhkəm tikdirdi, onun tavanını xurma ağacının qalın taxtaları ilə örtdürdü. Onun kənarında isə işləri idarə etmək və əshabı ilə məşvərət üçün "Darul-nədvə" adlı binanı tikdirdi. Sonra Kəbə evinin dörd tərəfini Qureyş tayfası arasında bölüşdürdü ki, onun kənarında evlər tikib qapılarını Kəbəyə tərəf açsınlar.

Besətdən beş il əvvəl sel Kəbə evini dağıtdı. Ərəb tayfaları onun binasını bərpa etmək üçün iştirak etdilər. Onu romalı Baqum adlı bir şəxs tikirdi. Misirdən bir nəfər usta da ona kömək edirdi. Müqəddəs qara daşı (əl-həcərul-əsvəd) öz yerinə qoymaq zamanı çatanda, tayfaların hər biri bu iftixarı özünə məxsus etmək istəyirdi. Buna görə onların arasında mübahisə və dava oldu. Axırda bu qərara gəldilar ki, Məhəmməd (s) (o zaman 35 yaşlı cavan idi) necə hökm versə, onun hökmü ilə razılaşsınlar. Çünki, onun ağıllı və düzgün fikrli olmasını etiraf edirdilər. Məhəmməd (s) əba istəyib qara daşı onun arasına qoydu və göstəriş verdi ki, ərəb qəbilələri bir-bir iştirak edərək onun kənarını qaldırsınlar. Qara daşı lazım olan yerə qoymaq vaxtı çatdıqda isə özü onu götürüb yerinə qoydu.

Tikintinin xərc və büdcəsinin çətinliyinə görə onun hündürlüyündən azaltdılar və evin "Hicri İsmail" tərəfində olan sahəsinin bir miqdarını binanın hüdudundan kənara çıxarmağa məcbur oldular.

Abdullah ibni Zubeyr, Yəzid ibni Müaviyənin hakimiyyəti zamanı Hicazı ələ keçirənə kimi Kəbə evinin binası bu şəkildə idi. Yəzidin Həsin adlı ordu başçısı Yəzidin göstərişinə əsasən Abdullah ilə mübarizəyə başladı. Kəbə evinin pərdəsini və taxtalarının bir hissəsini od tutdu. Döyüşün qızğın vaxtında Yəzidin ölüm xəbəri yayıldı. Həsin döyüşə davam etməkdən yayındı. Abdullahın fikri bu idi ki, Kəbə evini tamamilə uçurub onu yenidən tiksin. Buna görə Yəməndən əla növlü əhəng gətizdirib Kəbə evini

onunla tikdilər. İbn Zubeyr Kəbə evinin quruluşunda dəyişiklik apardı. "Hicr İsmail"i binanın içində yerləşdirib qapını isə yerdən qoydu. Başqa tərəfdən onun qarşısında bir qapı düzəltdirdi ki, camaat bir qapıdan girib, o biri qapıdan çıxsın. Kəbə evinin hündürlüyünü isə 16 metr yarıma qaldırdı. Onun tikintisi sona çatdıqdan sonra içini və çölünü müşk-ənbər ilə ətirləndirdi və gözəl örtüklə onun üstünü örtdü. Kəbənin bərpası hicrətin 64-cü ili, Rəcəbin 17-sində başa çatdı.

Əbdulməlik ibn Mərvan xilafətə çatdıqda Həccac ibni Yusifi Abdullah ibn Zubeyr ilə müharibəyə göndərdi Həccac, Abdullah ibn Zubeyrə qələbə çaldı və onu öldürdü. O, Kəbə evində Abdullah ibn Zubeyrin apardığı yenilikləri görüb bu xəbəri Əbdulməlikə çatdırdı. Əbdulməlik Kəbənin əvvəlki, formasına düşməsinə göstəriş verdi. Həccac Kəbənin şimal hissəsini üç metr, iyirmi santimetr dağıdıb divarı Qureyş binasına uyğun tikdi. Evin şərq hissəsində olan qapısını yerdən hündürləşdirdi və qərbdə olan qapısını bağladı. Sonra onun torpağını artıq qalan daşlarla doldurdu. Osmanlı imperatoru Sultan Süleyman 960–cı ildə (h.q) sultanlığa çatdıqda Kəbənin tavanını dəyişdi. Sonra Osmanlı imperatoru Sultan Əhməd 1021-ci ildə (h.q) sultanlığa çatdıqda orada düzəliş apardı. 1039-cu ildə güclü sel gəlib Kəbə evinin şimal şərq və qərbə tərəf olan divarlarını dağıtdı. Osmani imperatorlarından olan dördüncü Murad Kəbənin dağıntılarını təmir etdi. O

zamandan indiyə qədər (1401-ci ilə (h.q) kimi) elə də qalıb.

Kəbənin quruluşu təxminən, dördbucaqlıdır və çox möhkəm olan qaramtıl daşlardan düzəlib. Onun hündürlüyü 16 metrdir. Peyğəmbərin dövründə o bu qədər hündür deyildi, çünki, Peyğəmbər (s) Əlini (ə) mübarək çiyninə çıxarıb Kəbənin tavanında olan bütləri yerə tökdürmüşdü.

Navalça olan künc və onunla üzbəüz olan künc on metr on santimetrdir. Digər iki künc on iki metrdir. Kəbənin qapısı yerdən iki metr hündürlükdə yerləşdirilib. Evin giriş qapısının sol tərəfində yerləşən sütunda müqəddəs qara daş yerdən bir metr yarım hündürlükdə qoyulub. Qara daş nizamsız yonulub və uzunsovdur. Qırmızıya çalan qara rənglidir. Onun üzərində qırmızı nöqtələr, sarı xətlər vardır və ölçüsü təxminən, 30 santimetrdir.

Kəbənin küncləri qədimdən ərkan (sütunlar) adlanıb. Şimal küncü "rükni İraqi" (İraq sütunu), qərb küncü "rükni şimali" (şimal sütunu), cənub küncü "rükni Yəmani" (Yəmani sütunu) və müqəddəs qara daş olan tərəfdə yerləşən şərq küncü isə "rükni Əsvəd" (qara sütun) adı ilə ilə məşhurdur. Müqəddəs qara daş ilə qapının arasında olan məsafəni "Mültəzim" adlandırıblar, çünki, təvaf edən şəxs çox vaxt dua etmək və Allaha yalvarmaq üçün orada durur. Evin "Navalçası" isə şimal tərəfdə olan divarda yerləşdirilib və "rəhmət mizabı" adlanıb. Onu Həccac ibn Yusif tikdirib. Sonra 954-cü ildə Sultan Süleyman onu gümüş

navalçaya çevirib. Ondan sonra Sultan Əhməd 1021 ci ildə qızıldan yeni navalça düzəltdirib onun yerinə qoydurub. 1273-cü ildə isə Osmanlı imperatoru Sultan Əbdülməcid qızıldan yeni navalça düzəltdirib ora yapışdırıb. O, indiyə kimi yerindədir.

Navalçanın qarşısında əyri formada divar çəkilib ki, "hətim" adlanır. Onun iki tərəfi ilə evin küncləri arasındakı məsafə 2 metr 3 santimetrə üç çatır. Divarın hündürlüyü bir metrdir. İçəri tərəfdən mərmər daşlar ilə döşənib. Onun ortasından evin küncünün yarısına kimi olan məsafə səkkiz metr 44 santimetrdir. Kəbənin divarı ilə "hətim" arasında olan məsafəyə "hicri İsmail" deyirlər. Həzrət İbrahimin (ə) tikintisində onun təxminən üç metri Kəbə evinin içində idi. Qalan hissəsində Hacərin və oğlu İsmailin qoyunlarının yeri idi. Deyirlər ki, Hacər və İsmail orada —"Hicri İsmail"də dəfn olunublar.

Bunlar Kəbə evinin quruluşuna aid idi. Onun daxilində baş verən hadisələrin, eləcə də onun adət-ənənələrinin geniş izahına gəldikdə isə, bu haqda çoxlu materiallar vardır ki, onların izahına elə də ehtiyac yoxdur.

### *KƏBƏNİN PƏRDƏSİ*

“Bəqərə” surəsində Hacər və İsmailin dastanına və onların Məkkə məntəqəsinə gəlmələrinə işarə edən ayələri təfsir edən rəvayətlərdə qeyd olunub ki, Kəbənin binasını tikib qurtardıqdan Hacər öz əbasını Kəbə evinin qapısından asmışdır.

Amma Kəbənin özünün pərdəsi haqqında deyirlər ki, ilk dəfə Kəbəyə pərdə örtən Təbə` Əbubəkr Əs`əddir. Gümüş naxışla zinətlənmiş parçanı ora büküb. Ondan sonra onun canişinləri bu işi yerinə yetiriblər. Sonra camaat onu müxtəlif parçalarla bükürdülər. Bəzən bir hissə köhnələndə onun üstünə təzəsini asırdılar. Bu iş Quseyy ibni Kilabın zamanına kimi davam etdi. Quseyy ərəb camaatına ildə bir dəfə Kəbənin pərdəsini hazırlamağa göstəriş verdi. Bu qanun onun oğlanlarının arasında da davam etdi. Əbu Reybə ibni Muğeyrə və Qureyş qəbilələri hər il növbə ilə bu işi davam edirdilər.

Rəsuli-Əkrəm də (s) onu Yəmani parçası ilə örtdü. Peyğəmbərin Kəbəyə örtdüyü pərdə Abbasi xəlifəsi Məhdi həccə gedənə kimi oradan asılı qalmışdı. Kəbənin xidmətçiləri Məhdiyə şikayət etdilər ki, pərdənin üstünə çoxlu parçalar toplanıb və ağırlıq edib, qopub yerə töküləcək. Məhdi göstəriş verdi ki, onları götürüb yerinə təzə pərdə assınlar və hər il onu dəyişsinlər. Bu iş davam etdi və indi də o hər il bir dəfə dəyişilir.

Kəbə evinin içərisində də pərdə var. Birinci dəfə Abbas ibni Əbdul Müttəlibin anası oğlu Abbas üçün etdiyi nəzirə görə bu işi gördü.

## *KƏBƏ EVİNİN ƏZƏMƏTİ*

Kəbə evi bütün insanlar və qəbilələr üçün böyük və müqəddəsdir. Hindistanlılar ona əzəmətlə baxırlar. Onların etiqadına görə üçüncü "İqnul" sayılan "Şiva" nın

ruhu arvadı ilə birlikdə Hicaz məntəqəsinə səyahət edən zaman müqəddəs qara daşda hülul etdi[34].

Kəldanilər və Fars ulduzpərəstləri Kəbə evini yeddi əzəmətli evlərdən biri sayırlar.[35] Bəziləri onun qədim tarixli və uzun ömürlü olmasına görə deyirlər ki, Kəbə "Zuhəlin" evidir .

Farslar da Kəbəyə ehtiram qoyublar, çünki, onların etiqadlarına görə "Hörmüzün" ruhu orada hülul edibdir. Bəzi vaxtlar ziyarət etmək məqsədi ilə oraya səfər edirdilər.

Yəhudilər də Kəbə evini böyük sayırdılar və orada İbrahim peyğəmbərin (ə) dini əsasında Allaha pərəstiş edirdilər. Orada şəkil və portret yerləşdirilmişdir. O cümlədən, İbrahimin və İsmailin əllərində ox tutduqları vəziyyətdə şəkilləri, eləcə də "Məryəm" və "Məsih"in iki şəkili orada idi. Buradan məlum olur ki, xristianlar da oranı müqəddəs məkan bilirmişlər.

Başqa bir tərəfdən isə ərəblər onun qarşısında böyük ehtiramla baş əyir və "Allahın evi" hesab edirdilər. Hər tərəfdən həcc üçün oraya səfər edirdilər. Onlar Kəbə evini İbrahim (ə) tərəfindən tikilməsinə inanır və həcc məsələsini Ibrahimin dinindən sayırdılar ki, bu, irs kimi onların aralarında qalıbdır.

---

[34] Yəni ruh daşa кeçib ona qovuşdu.

[35] Yeddi ev bunlardır:1. Kəbə; 2. "Mars"; İsfahan dağlarının üstündədir. 3. "Məndüsan"; Hind ətrafındadır. 4. "Novbahar"; Bəlx şəhərindədir. 5. "Qəmdan evi"; Səna şəhərindədir. 6. "Kavsan"; Xorasanın Fərqanə şəhərindədir. 7. Çinin ən yuxarı bölgələrində olan bir ev.

## *KƏBƏ EVİNİN RƏHBƏRLİYİ*

Kəbənin rəhbərliyi həzrət İsmailin (ə) vaxtında onun öhdəsində idi. Ondan sonra rəhbərlik onun övladlarına qaldı. “Curhum” ərəbləri sonradan onlara qələbə çalıb rəhbərliyi ələ keçirtdilər. Sonralar "Bəni Kərkər" qəbiləsindən olan və Məkkənin aşağı bölgəsində yaşayan Əmaləqə tayfası bir çox müharibələrdən sonra Məkkənin yuxarı hissəsində məskunlaşmış "Curhumi"lərə qələbə çaldı və nəticədə Kəbə evinin rəhbərliyi onların əlinə düşdü.

Bu rəhbərlik Əmaləqə üçün çox çəkmədi və yenidən "Curhumun" ixtiyarına keçdi. 300 ilə yaxın Kəbə evinin rəhbərliyi Curhumilərin ixtiyarında qaldı. Bu müddətdə Kəbənin binasını artırıb hündürləşdirdilər.

İsmail peyğəmbərin (ə) övladları yavaş-yavaş çoxalıb qüdrətlənirdilər. Digər tərəfdən isə yaşayış məntəqələrində sıxlaşma getdiyi üçün vəziyyət çətinləşirdi. Onlar məcbur idilər ki, Curhum tayfası ilə müharibə edib onlara qələbə çalaraq şəhərdən çıxarsınlar. Həzrət İsmailin övladlarının rəhbəri bu zaman Əmr ibn Ləhi idi. O "Xuzai" tayfasından hesab olunurdu. Əmr Məkkəni işğal edib Kəbənin rəhbərliyini ələ keçirtdi. Əmr Kəbə evinə büt qoyub camaatı bütə pərəstiş etməyə dəvət edən ilk şəxsdir. Ora qoyulan birinci büt "Hubəl" adlanırdı. Onu Şamdan Məkkəyə gətirdilər və sonradan başqa bütləri də ora əlavə etdilər. Bütpərəstlik ərəblər arasında yayıldı və İbrahimin Hənif dininə olan pərəstiş tərk olundu.

Əmr ibn Ləhinin Allahpərəstliyin yerinə bütpərəstliyi gətirməsi haqda "Şəhnət ibn Xəlf Curhumi" ona xitab edərək bu şeri oxudu:

Ey Əmr, Kəbə evi ətrafında müxtəlif allahlar icad etdin, baxmayaraq ki, onun həmişə yeganə pərvərdigarı var. Sən camaat arasında Kəbə üçün rəblər və maliklər müəyyən etdin, sən bilirsən ki, indi sənə Allah möhlət verib, tezliklə səndən başqasını onun üçün qoruyucu təyin edəcək.

Hər halda Kəbənin rəhbərliyi "Xuzaə" tayfası arasında Həlil Xuzainin zamanına kimi davam etdi. Həlil özündən sonra Kəbənin rəhbərliyini qızı—Quseyy ibn Kilabın yoldaşı—üçün təyin etdi və Kəbənin qapısının açılıb-bağlanmasını Əbu Qəbşan adlı bir kişiyə tapşırdı Əbu Qəbşan bu haqqı bir tuluq şəraba və bir dəvəyə Quseyy ibn Kilaba satdı.

Bu haqda "alverdə Əbu Qəbşandan da çox ziyana düşmək" adlı məşhur zərbülməsəl ortaya çıxdı.

Ondan sonra Kəbə evinin rəhbərliyi Qureyşə tapşırıldı. Dediyimiz kimi Quseyy Kəbənin binasını təzələdi. Kəbə evinin vəziyyəti və onun rəhbərliyi

Məkkənin fəthindən sonra Peyğəmbərin içəri daxil olaraq Allahın evindən asılmış şəkillərin aşağı endirilib məhv edilməsi və bütlərin sındırılması haqda verdiyi göstərişə qədər əvvəlki kimi davam etdi.

"İbrahim məqamı" (İbrahim qədəmgahı) daşdan ibarətdir ki, o Həzrətin qədəmlərinin izi onun üzərində qalıb. O zaman Kəbənin yaxınlığında aşkar idi, amma onu indi "İbrahim məqamı" adlı yerdə basdırıblar.

Kəbəyə aid olan dastan və xəbər çoxdur, lakin biz Kəbə və Həcc ayələrini dərk etmək üçün fikirləşən şəxslər üçün lazım olan hissələrlə kifayətləndik.

Son olaraq qeyd etmək lazımdır ki, Kəbə evinin xüsusiyyətləri çoxdur. Onlardan biri də budur ki, Kəbə bütün müsəlmanların qəbul etdiyi məkandır. Müsəlman firqələrinin heç biri onun haqda mübahisə etməyiblər.

## *MÜNDƏRİCAT*


*ÖN SÖZ*..........................................................................3

*KİŞİ VƏ QADININ HÜQUQLARI*...........................................4

AİLƏ QURMAQ....................................................................9

BOŞANMAQ........................................................................12

*İSLAM DİNİNİN ZAMANLA UYĞUNLAŞMASI VƏ ŞƏRİƏT HÖKMLƏRİ*.....................................................................17

*VƏLİƏHDLİK YOXSA CANİŞİNLİK ?*................................49

*BƏZİ ŞƏRİƏT HÖKMLƏRİNİN BƏYANI*..................................51
*QANUN VƏ ALLAHA İMAN*..................................................58
*İSLAM VƏ MÜQAVİLƏLƏR*...................................................62
*YUXU GÖRMƏK*....................................................................66
*KƏBƏ VƏ ONUN XÜSUSİYYƏTLƏRİ*.....................................70

***KƏBƏNİN PƏRDƏSİ***.......................................................75

***KƏBƏ EVİNİN ƏZƏMƏTİ***...................................................76

***KƏBƏ EVİNİN RƏHBƏRLİYİ***...........................................77